www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 noyabr 2018-ci il Çərşənbə № 242 (7131) Qiymәti 60 qәpik

**Xəbər**

**Sahibsiz itlər Bakı küçələrində təhlükə saçır - SOS**

yazısı səh.4-də

**Gündəm**

**"Deputatlarla bağlı qanunlara dəyişiklik yeni parlament üçündür" iddiası**



**Zahid Oruc:** "Deputatların etik davranışına belə təkliflər "göydən düşməyib..."

yazısı səh.5-də

**Dövlət xidmətləri tam elektronlaşdırılacaq**

yazısı səh.6-da

**"Norveç Azərbaycanda səfirliyi neft layihələrinə görə açmışdı" iddiasına iki rəy**

yazısı səh.9-da

**"Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabı işıq üzü gördü**

yazısı səh.6-da

**Baş nazirin müavinləri: kim hansı işə baxır**

yazısı səh.12-də

**Həbsdə olan generalın bacanağı da hakim qarşısında - dələduzluq işi...**

yazısı səh.3-də

**Parlamentdə hökumətin iştirakı ilə büdcə müzakirələri başladı**

yazısı səh.10-da

**Paşinyana qarşı hərbi müxalifət meydana çıxa bilər**

yazısı səh.9-da

**Azərbaycanda sürüşmə zonaları aktivləşib**

yazısı səh.4-də

**İçərişəhərdə restoranlarla bağlı son durum: sakinlər narazıdır**

yazısı səh.13-də

**Dünyada insanı dəhşətə gətirən adət və inanclar**

yazısı səh.15-də

# ERMƏNİSTAN ƏTRAFINDA ÇƏNBƏR DARALIR: BAKI SEÇİMİ ASANLAŞDIRA BİLƏR

ABŞ-ın İran və Rusiyaya qarşı sərtləşən sanksiyaları ən çox işğalçı ölkəni çətinə salıb; Azərbaycan Gürcüstan kimi Ermənistanın da enerji təchizatını öz üzərinə götürə bilər, əgər...; **Qərb KİV-i:** "Ermənistanın regionda izolyasiyada olması və dənizə çıxışdan məhrumluğu..."




yazısı səh.8-də

## Yerlərdə sahibkarların "qanını içən" vəzifəlilər

Prezidentin tapşırığına məhəl qoymayanları hansı cəza gözləyir; **Fikrət Yusifov:** "İqtisadiyyatın inkişafının bir problemi var ki, bu da məmur problemidir"

yazısı səh.12-də



**Nemət Pənahlı bir aylıq həbsindən danışdı**

yazısı səh.5-də



**Avropadan Zamirə Hacıyevaya ilə bağlı şok təklif -kitab yazmaq, film çəkmək**

yazısı səh.7-də



*Tofiq Zülfüqarov:*

**"Rusiya getdikcə Ermənistandan tam uzaqlaşacaq"**

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018

**Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyevin vəkili Aqil Layıcov müvəkkili ilə görüşüb. O, bu barədə modern.az-a məlumat verib, deyib ki, Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ilə bağlı proseslərdən xəbərdardır: "Sonuncu dəfə ötən həftə görüşmüşük. Cahangir bəy medianı izləyir, bütün xəbərləri oxuyur.**

# Vəkili Zamirə Hacıyevanı günahsız hesab edir, rusiyalı vəkil "həbsə gedəcək" deyir

## Aqil Layıcov: "Zamirə Hacıyeva haqda araşdırmanın nəticəsi cinayət məsuliyyəti yaratmır"

Qeyd edim ki, mediada gedən bəzi məsələlər heç bir hüquqi əsasa söykənmir. Bəziləri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ilə bağlı prosesin təfərrüatını bilmədən məlumatı tirajlamaqda davam edir. Əslində "İzah edilməmiş gəlirlər" cinayət məsuliyyəti yaratmır. Bu, sadəcə, administrativ araşdırmadır. Yəni araşdırma nəticəsində şəxsə hər hansı cəza verilə bilməz, yaxud o, əmlakdan məhrumiyyətə məruz qala bilməz. Ona görə də media bu tip mövzulara həssas yanaşmalıdır. Əksəriyyət buna cinayət kontekstindən yanaşır, məsələni həddindən artıq şişirdir. Bununla da şəxsin təqsirsizlik prezumpsiyasını pozurlar".

**A.Layıcov Zamirə Hacıyeva ilə bağlı yerli mətbuatda gedən yazıların əsasən xarici KİV-lərə istinadən yayıldığını xatırlatdıqda, cavabı belə olub:** "Xarici KİV-lərdə bir məlumat oxudum. Orada da qeyd olunur ki, bu, sadəcə, araşdırmadır. Və vurğulanır ki, cinayət kontekstində gedən araşdırma yox, inzibati araşdırmadır. Ona görə də inzibati araşdırma ilə, cinayət tipli araşdırmanı bir-birindən fərqləndirməliyik. Onlar tamam başqa-başqa məsələlərdir. Bəzi mətbuat orqanlarında məlumat elə yazılıb ki, sanki Zamirə Hacıyeva təqsirkardır və onu təqsirləndirilən şəxs qismində təqdim edirlər. Əslində isə Zamirə Hacıyevanın bu məsələdə iştirakı yalnız şahidlikdir. Həmin araşdırmanın nəticəsi cinayət məsuliyyəti yaratmır. Bu, bizdə də var. Müəyyən əmlaka sahib olan şəxslərin bəyannamə vermək öhdəliyi var. Bu da onun tipli bir şeydir". **Hüquq müdafiəçisi Cahangir Hacıyevin səhhətində müəyyən problemlər olduğunu da vurğulayıb:** "Ümumiyyətlə o, dərmanla yaşayan insandır, narahatlıqları var. Və həyat yoldaşı ilə bağlı məsələlərdə də təbii olaraq narahatlıq keçirir".



"Exo Moskvı" radiostansiyasının saytındakı bloqunda məşhur rusiyalı vəkil Anton İmennov vəkil Aqil Layıcovun sözlərini şübhə altına alan fikirlər paylaşıb.

Virtualaz.org xəbər verir ki, o yazır ki, Z.Hacıyevanın bəyan edilmiş gəlirlərinin məbləği Naytsbric kimi nüfuzlu rayonda evin, Askotda qolf-klubun alınması, biznes-jetlərin icarəsi, "Boucheron" və "Van Cleef & Arpels" bahalı zinət əşyalarının, saatların və kolleksiya fransız şərablarının alışı ilə müqayisə edilməzdir. Blogger iddia edir ki, qanunlar Z.Hacıyevadan yana deyil. Belə ki, 2002-ci ilin cinayət yolu ilə əldə edilmiş gəlirlər haqqında qanununun 8-ci hissəsində əksini tapır. Z. Hacıyeva isə tez-tələsik məşhur kral vəkili Ceyms Lyuisi və onun kiçik həmkarı Ben Uotsonu özünə vəkil tutaraq hüquqi hücuma keçib və əmlakı üzərində ləğvi üçün vəsatət qaldırıb. İngilis məhkəməsi isə vəsatəti təmin etməyib, çox maraqlı arqumentlər və əsaslar gətirib.

"Hakim Supperstoun qərara alır ki, bu işdə hər hansı istisna yoxdur ki, ingilis məhkəməsinə xarici məhkəmə tərəfindən, hətta bu ciddi qanun pozuntuları ilə olsa belə, çıxarılmış hökmün mövcudluğu faktını əsas götürərək hərəkət etməyə mane olsun. Baxılan xarici dövlətin cinayət məhkəməsi sistemində ciddi çatışmazlıqların olması faktı hamıya məlum həqiqət olsa da. Cinayətkarlıqla Mübarizə üzrə Milli Agentlik istintaq dövründə cavabdehin ərinə qarşı cinayət işinə ədalətli baxılıb-baxılmamasını müəyyən etməyə borclu deyil. İstənilən halda, məhkəməyə bu cinayət işinə aid olmayan sübutlar təqdim edilib ki, bunlar cavabdehin ailə üzvlərinin adına 35 kredit kartının buraxılması yolu ilə bank vəsaitlərinin oğurlanması ittihamlarını əlavə olaraq sübuta yetirir.

Ümumilikdə, hakim Supperstoun qərara alıb ki, Cinayətkarlıqla Mübarizə üzrə Milli Agentlik "Cinayət yolu ilə əldə edilmiş gəlirlər haqqında" Qanunda nəzərdə tutulmuş Orderin verilməsi üçün şərtlərə əməl edib, cavabdehin hüquqlarının pozulması isə müqayisəli xarakter daşıyır və orderin ləğvi ilə bağlı vəsatət təmin edilmir.

Hakim Supperstounun qərarı ingilis məhkəmələrinin orderə müraciət edən hüquq-mühafizə orqanının hansı xüsusları sübuta yetirməli olduğunu təsbit edən ilk izahatdır. O ki qaldı bu institutun effektivliyinə, faktiki olaraq, gözlərimizin önündə hüquqi inqilab və günahsızlıq prezumpsiyasının transformasiyası baş verir - indi Böyük Britaniyada əmlakı olan, lakin onu yeni riskləri nəzərə almadan qeydiyyatdan keçirmiş və Cinayətkarlıqla Mübarizə üzrə Milli Agentliyin suallarına cavab verməkiqtidarında olmayan hər hansı BTB, VEB, Sberbank, Qazprombank və digər bankın şərti rəhbəri həmin əmlakla vidalaşmağa mənəvi cəhətdən hazır olmalıdır.

Özü də MDB ölkələrinin hakim elitasina aid olmaq əvvəlcədən ağırlaşdırıcı hal kimi nəzərdən keçirilir. Və Britaniya isteblişmenti ilə heç bir əlaqə kömək etməyəcək" deyə, blogger bildirib.

❑ **E. HÜSEYNOV, "Yeni Müsavat"**

# Zamirə Hacıyevanın növbəti məhkəmə iclasının tarixi müəyyənləşib

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin hazırda həbsdə olan sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın növbəti məhkəmə iclasının tarixi müəyyənləşdirilib.**

"Report"un London bürosu xəbər verir ki, "Westminister Magistrates" məhkəməsində keçirilən inzibati iclasda növbəti məhkəmənin 24, 26, 27 və 28 iyun 2019-cu il tarixlərində keçiriləcəyi bildirilib.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin hazırda həbsdə olan sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ötən həftə İngiltərənin paytaxtı Londonda saxlanılıb. 55 yaşlı Z.Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunub. Bu sərəncama əsasən, o, var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır.

UWO, Britaniyada potensial çirkli pullara sahib olan şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanundur.

Londonun Vestminster rayonunun Magistrat Məhkəməsində məlum olub ki, o, Azərbaycan tərəfinin tələbi əsasında London polisi tərəfindən saxlanılıb. Z.Hacıyevanın həbsi onun Bakıya ekstradisiyası barədə xahiş ilə bağlıdır. Məlumata görə, ona qarşı iki mənimsəmə ittihamı irəli sürülüb.

Zamirə Hacıyeva 10 il ərzində Londonun məşhur dükanı "Harrods"da 16 milyon funt sterlinq (35.85 milyon manat) xərcləyib. Bu, gündə 4000 funtdan çox xərcləmə deməkdir. O, Londonda alış-verişləri üçün ödənişi ərinin bankının 35 ədəd kredit kartı ilə edib.

Yeddi il əvvəl Britaniyanın Virgin Adalarında mənzillənən bir şirkət Londonun qərbində "Harrods" alış-veriş mərkəzinin yaxınlığında bir evə 11.5 milyon funt (15.13 milyon dollar) ödəyib.

2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını - "Mill Ride Golf Club"u almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib.

Rəsmi məlumatlar cütlüyün "Harrods"un bahalı avtomobil parkında iki xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) "Gulfstream G550 jet" təyyarəsini aldığını da ortaya çıxarıb.

Ötən həftə onun ailəsinə aid olan 400 min funt sterlinqdən çox dəyəri olan zinət əşyaları müsadirə edilib və "Christie" auksionunda satışa çıxarılması nəzərdə tutulub.

❑ **Aytən ABBASLI, "Yeni Müsavat"**

# Həbsdə olan generalın bacanağı hakim qarşısında

## Müsənnif Talıbov özünü prokurorluq əməkdaşı kimi təqdim edərək dələduzluq etməkdə suçlanır



**Hazırda həbsdə olan ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanovun qohumu hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, generalın bacanağı Müsənnif Talıbov Bakı Ağır Cinayətlər Məhkəməsində mühakimə olunur. Müsənnif Talıbov Cinayət Məcəlləsinin 312-ci (rüşvət vermə) və 178-ci (dələduzluq) maddələri ilə ittiham edilir.

Dünən baş tutan prosesdə təqsirləndirilən şəxsin oğlu Fərid Talıbov ifadə verib. Fərid Talıbov bildirib ki, cinayət işində zərərçəkmiş şəxs qismində tanınan Amid Hüseynovu tanıyır. Onun qardaşı ilə sinif yoldaşı olub: "Uşaqlıqdan onları tanıyıram. 2008-ci ildə mənə torpaqları olduğunu, ona sənəd almaq lazım olduğunu dedi. Mən də bu barədə atama müraciət etdim. Atam həmin vaxt dövlət işində işləyirdi. Sonra Amid atama 6 min dollar pul verdi. İş alınmadı, atam pulu geri qaytardı, lakin o, yalnız 500 dolları götürdü. Amid bildirdi ki, pul evdə qalsa xərclənəcək. Bir müddət keçəndən sonra Amidin atası qəza törədib, həbs edildi. Atam onun yanına gedib-gəldi. Biz bu barədə sorğu da vermişik, atam onun yanına 53 dəfə gedib-gəlib".

**Suallara cavab verən Fərid Talıbov barəsində cinayət işi başlandığını deyib. O qeyd edib ki, işə Nizami Rayon Məhkəməsində baxılır:** "Guya mən Amidə özümü Nizami Rayon Prokurorluğunun əməkdaşı kimi təqdim etmişəm. Belə şey olmayıb. Buna görə də barəmdə cinayət işi başlanılıb və ibtidai istintaq yekunlaşıb, hazırda Nizami Rayon Məhkəməsində baxılır".

Sualları cavablandıran şəxs deyib ki, bu cinayət işi üzrə təqsirli bilinib və həbs edilən Bakı Şəhər Prokurorluğunun Təşkilat-analitik şöbəsinin böyük mütəxəssisi, dəftərxananın sabiq müdiri Elçin Qurbanov onun dayısıdır.

**Bildirək ki, sərbəst ifadəsində Müsənnif Talıbov heç kimdən pul almadığını, ittihamda yazılanlarla razı olmadığını söyləyib. Qeyd edib ki, zərərçəkmiş Amid adlı şəxsin torpaq sahəsinin sənədlərində problem olub. Bunu qaydasına qoymaq üçün ona 6 min manat pul verib:** "Sonra Amid Türkiyəyə gedəndə gəlib məndən 500 manat pulunu aldı, 5500 manat isə məndə qaldı. İş düzəlmədi və mən ona dedim ki, gəlib pulunu götürər. Bir qədər keçəndən sonra Amidin atası qəza törətdi. O, məndən atasına yardım etməyimi istədi. Onun xəstəxana xərclərinə Amidin məndə olan 5500 manatından da artıq pul xərclədim".

Məlumata görə, o, qonşusuna qarşı dələduzluq edib. Belə ki, Talıbov qonşusuna həbsdə olan atasını azad edəcəyini deyib. Daha sonra isə onun torpaq sahəsinə sənəd əldə edəcəyi vədini verib.

İttihama görə, M.Talıbov bu işlərin qarşılığında həmin şəxsdən ümumilikdə 30 min manat pul alıb. Səhhətində problem olan M.Talıbovun barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib və o, azadlıqdadır.

Məhkəmənin hazırlıq iclası baş tutmayıb. Buna səbəb təqsirləndirilən şəxsin məhkəməyə gəlməməsi olub. Talıbovun vəkili deyib ki, müvəkkilinin səhhətində problem olduğu üçün məhkəməyə gələ bilməyib.

Xatırladaq ki, general Sübahir Qurbanov "MTN işi" çərçivəsində həbs edilib. O, 14 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **İlkin MURADOV, Musavat.com**

# Azərbaycanda sürüşmə zonaları aktivləşib

## **Ekspert:** "Sürüşmənin bu cür aktivləşməsində insan faktoru böyük rol oynayır"



**Bakıda sürüşmə zonalarında yenidən aktivlik müşahidə edilir. Eyni zamanda noyabrın 12-də cənub bölgəsində yağan intensiv yağış nəticəsində Astarada sürüşmə zonasında da aktivlik baş verib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən "Yeni Müsavat"a bildirilib ki, torpaq sürüşməsi rayonun Taxtanəkəran-Miki avtomobil yolunun 5-ci kilometrliyində qeydə alınıb. Torpaq sürüşməsi nəticəsində yolun asfalt örtüyü 18-20 metr aralanaraq çatlar əmələ gəlib. Sürüşmə nəticəsində sitrus bağlarına da ciddi ziyan dəyib.

Mütəxəssislər bildirirlər ki, Azərbaycanda daha çox sürüşməyə meylli ərazilər Şamaxı-İsmayıllı və cənub zonasındadır. Daha çox uçqun tipli sürüşmə isə Bakı-Şamaxı yolunun 106-cı kilometrliyində müşahidə edilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov bildirib ki, Şamaxı rayonunun Mədrəsə kəndində, təsərrüfat yönümlü işlər üçün istifadə edilən 40 hektarlıq ərazidə çökmə və sürüşmə prosesləri davam edir.

Bakıda isə hazırda əsasən Badamdar, Zığ şosesi, Masazır ərazilərində sürüşmə baş verir. Eyni zamanda Bayıl yamacında da hər an sürüşmə baş verə bilər. Coğrafiya İnstitutunun mütəxəssislərinin apardıqları tədqiqatlara əsasən Bakının bir neçə əsas sürüşmə ocaqları müəyyənləşib.

Əhmədli şosesi, Zığ şosesi, Binəqədi, Bayıl, Badamdar, Masazır gölünün ətrafında - ümumilikdə təxminən 20 yerdə böyük sürüşmə sahəsi var. Həmin sürüşmə sahələrində 150 mindən çox əhali məskunlaşıb. Bu ərazilərdə sürüşmə sahələri geniş yayılıb və həmin ərazilər sürüşmə baxımından təhlükəli hesab edilir. Mütəxəssislərin sözlərinə görə, son 20-25 ildə Bayıl yamacında sürüşmə sahəsi daha da artıb. Təqribi hesablamalara görə, ölkə ərazisinin ən azı 25-26 faizinin potensial sürüşmə təhlükəsi var. Azərbaycanda sürüşmə sahəsinə Şamaxının Muğanlı kəndi, Muğanlı-İsmayıllı şosesi, Ağsu aşırımı, Lənkəran-Lerik yolu, Bakı-Rusiya yolunun Siyəzən, Şabran rayonu ərazisindən keçən hissəsi (Vəlvələ çaya kimi) daxildir.

**"Yeni Müsavat"a danışan ekspert Əzim Məsimov bildirib ki, cənub bölgəsində və eləcə də digər ərazilərdə baş verən sürüşmələr əsasən insan faktorundan qaynaqlanır:**

"Dağ yamaclarını kəsib, yolu genişləndirirlər. Sonradan isə həmin ərazilərdə sürüşmə baş verir. Ümumiyyətlə, hazırda bütün dünyada sürüşmə hadisəsi yaşanır. Səbəb də insan faktorudur. İllərdir toxunulmayan dağlar qazılıb, yol çəkilən zaman çox diqqətli olmaq lazımdır. Bundan əlavə, həmin ərazidə torpağın növü də ciddi şəkildə araşdırılmalıdır. Torpaqlar var ki, sudan şişir, bəziləri sürüşür, bəziləri çökür. Yəni növündən asılı olaraq torpağın da suya reaksiyası fərqlidir. Qazıntı işləri aparan zaman nəzərə almaq lazımdır ki, region sürüşməyə meyllidir. Eyni zamanda oradakı qrunt növünü də nəzərə almaq gərəkdir. Astara haqqında konkret fikir söyləmək olmaz. Bunun üçün torpaq haqqında məlumat olmalıdır. Sadəcə olaraq, torpaqla ehtiyatlı davranmaq lazımdır. İnsan faktoru nəticəsində ölkəmizdə sürüşmə gündən-günə çoxalır. Mühəndis işləri düzgün qaydada aparılmır. Bunun da təsiri böyükdür".

**Onu da qeyd edək ki, Bayıl yamacında son zamanlar baş verən sürüşmə ilə bağlı mütəxəssislər insan faktorunu və kanalizasiya sisteminin olmamasını xüsusi olaraq vurğulayırlar. Lakin Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizov unikal.org saytına açıqlamasında fərqli fikir söyləyib. O bildirib ki, hələ daş dövründə də sürüşmə hadisəsi olub:** "Sürüşmə baş verən kimi, kimlərsə günahkar axtarmağa çalışırlar. Kimlərsə öz fəaliyyəti ilə bu prosesə təkan verə bilər. Hadisə 5 ildən deyil, 3 ildən sonra baş verə bilər. Amma bu, daş dövründə də olub. XVIII- XIX əsrdə də olub. Bu gün sürüşmənin qarşısını tam almaq bir az çətin məsələdir..."

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Sahibsiz itlər Bakı küçələrində təhlükə saçır

## Küçə itləri bulvarda, blokların qarşısında belə insanlara hücum edir; **ekspert:** "Hücum edərkən sahibsiz itləri qıcıqlandırmamaq üçün ilk növbədə sakit dayanmaq lazımdır"

**Bakıda sahibsiz itlərin günbəgün artması insanlara problem yaradır. Bakının bir çox mərkəzi küçələrində sahibsiz itlərin yolla gedən insanlara hücum etməsi ilə bağlı sosial şəbəkələrdə də xeyli məlumatlar paylaşılır. Redaksiyamıza daxil olan məlumatlara görə, küçə itləri hətta bulvar ərazisini də zəbt ediblər. Gecə saatlarında "Bulvar" hotelin arxasında olan itlər insanlara hücum edir, onların həyatlarına təhlükə yaradırlar.**



Öncə məlumat üçün qeyd edək ki, küçə itlərinə nəzarəti Bakı Şəhər Mənzil Kommunal Departamentinin Sahibsiz Heyvanlarla Mübarizə İdarəsi həyata keçirir. Lakin hazırda bu qurumun və eləcə də icra hakimiyyətlərinin küçə itlərinə qarşı mübarizəsi məhdudlaşdırılıb. Belə ki, əgər əvvəllər qurumun əməkdaşlarına quduz, təhlükə yaradan itləri tüfəng vasitəsilə öldürməyə icazə verilirdisə, indi bu, belə deyil. Hazırda sahibsiz itlərlə bağlı Qaradağ rayonunda sığınacaq mərkəzi fəaliyyət göstərir. Onlar isə itlərə zərər vermədən toplayıb qısırlaşdırırlar. Qeyri-rəsmi məlumatlara görə, hazırda Bakıda 1 milyona yaxın sahibsiz it var. Belə olan təqdirdə təbii ki, qeyd etdiyimiz qurum bütün itləri toplayıb, qısırlaşdıra bilmir. İtlərin isə hər il ən azı 3 bala verdiyini nəzərə alarsaq, küçə itlərinin sayı sürətlə artmaqda davam edir.

2017-ci ilin avqust ayında Nazirlər Kabinetində sahibsiz heyvanlarla mübarizəyə və görüləcək profilaktik tədbirlərə dair müşavirə keçirilmişdi. Müşavirədə baş nazirin müavini Əli Əhmədov, Səhiyyə Nazirliyinin, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyinin və Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxsləri iştirak etmişdilər.

Baş nazirin müavini Əli Əhmədov bildirmişdi ki, əhalinin sağlamlığının qorunması, virus daşıyıcısı olan sahibsiz heyvanların təcrid edilməsi üçün müvafiq qurumlar tərəfindən ciddi addımlar atılmalıdır. O, həmçinin qeyd etmişdi ki, bu məsələnin həllində aparıcı ölkələrin təcrübəsindən də yararlanmaq lazımdır: **"Azərbaycan ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyasına qoşulub. Sahibsiz heyvanlar üçün sığınacaqlar yaradılmalı, onlar peyvənd olunmalı, yayıla biləcək xəstəliklərin qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir".**

Görülən tədbirlərə baxmayaraq, qeyd etdiyimiz kimi, Bakıda küçə itlərinin sayı durmadan artır və onlar artıq insanlara hücum da edirlər.

Bəs küçə itlərinin hücumları ilə üzləşən zaman nə etmək lazımdır?

**"Alyans" Canlı Aləm və Etika Xeyriyyə Cəmiyyətinin rəhbəri Mənsurə Rəsulzadə "Yeni Müsavat"a bildirib ki, ümumiyyətlə, heyvanlarla davranış qaydası var:** "Onların da müəyyən psixologiyası var. Heyvandan qorxub qaçan zaman o da sənin dalınca gəlir. Lakin daş atıb qaçmasan, o sənə hücum etməz. Sahibsiz itlərin artmasına qarşı mübarizə aparırıq. Onların qısırlaşdırılması işi nəticəsində 3-5 il ərzində sayları xeyli dərəcədə azalacaq. Müəyyən illərdən sonra isə ümumiyyətlə, küçələrdə it olmayacaq. Lakin hazırda bunu yığıb, öldürmək doğru olmaz. Bizi yaradan onları da yaradıb. İkincisi də dövlətin qanunu var ki, heyvanlarla qəddar rəftar qadağandır. Bu isə dövlət təcrübəsindən götürülüb. Ona görə də biz yeni bir şey kəşf etməyək".

Mütəxəssislər bildirirlər ki, it və digər heyvanlar qorxunu hiss edir. Ona görə də sizə doğru hürən, hücum edən bir iti görəndə çətin də olsa, sakitləşməyə çalışın. Əgər qışqırıb əl-qol atsanız, yaxud da qaçmağa başlasanız, it sizi ov kimi görəcək və sizə hücum edəcək.

Qaçarkən aqressiv bir itlə qarşılaşmısınızsa, addımlarınızı yavaşladın. İtin bir yanından yavaş-yavaş gedərək bir gözünüzlə də ona nəzarət edin. Dik şəkildə durmaq itin sizə diqqətini dağıdacaq. İtin gözünün içinə baxmaq onu daha da özündən çıxarar.

Bundan əlavə, hücum edən itin başını hər hansı bir əşya ilə də qatmaq mümkündür. Bu, qida, yaxud da ayaqqabı, bel çantası, plastik şüşə kimi dişlənəcək bir şey də ola bilər. Əgər it aqressiv davranmağa davam edərsə, göz təmasından uzaqlaşın. Getməsi üçün istiqamət verin. Səs tonunuza diqqət edin, güclü və özünüzdən əmin görünün. Çox kobud, şiddətli səslərdən xoşları gəlmir.

Mütəxəssislərin fikrincə, it hücum edən zaman "geri çəkil, get" deyə bilərsiniz. Sərt səs tonunda deyil, sakit bir şəkildə bu tapşırığı versəniz, it bunu anlaya biləcək.

Bir çox itlər isə hücum edəndə insanın çöməlib dayanması tövsiyə edilir. Amma bu hal heç də həmişə faydalı olmur, bəzi itlər çömələn adamdan qorxub qaçsa da, bəziləri hücumu davam etdirir.

Məsələ ilə bağlı Dənizkənarı Bulvar İdarəsindən "Yeni Müsavat"a aşağıdakılar bildirilib:

"Dənizkənarı Bulvar İdarəsi Milli Park ərazisində insanların rahat və təhlükəsiz istirahətinin təmin edilməsi üçün mütəmadi tədbirlər görür. Ərazidəki sahibsiz itlərin zərərsizləşdirilməsinə gəlincə, bununla müvafiq strukturlar məşğul olur və İdarə tərəfindən onlarla müqavilə bağlanılıb. Müvafiq tədbirlərin görülməsi üçün onlarla mütəmadi əlaqə saxlanılır. Sahibsiz itlərin tutulub zərərsizləşdirilməsi üçün mütəxəssislər Dənizkənarı Milli Park ərazisinə dəvət olunur və bu sahədə müvafiq işlər aparılır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

**"Milli Məclisin deputatının statusu haqqında" və "Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanunlara edilən dəyişikliklər geniş müzakirələrə səbəb olub. Deputatların bəziləri, hətta YAP-çı deputatlar qanunlara edilən dəyişikliklərin deputatların səlahiyyətlərini bir qədər də azaltdığını bildirərək narazılıqlarını ifadə ediblər.**

# "Deputatlarla bağlı qanunlara dəyişiklik yeni parlament üçündür" iddiası

Bəzi siyasətçilər və siyasi təhlilçilər isə hesab edir ki, deputatların etik davranışları ilə bağlı qanuna edilən dəyişikliklər növbəti parlamentə hesablanıb, yeni qanun deputatlar üzərində nəzarəti daha da gücləndirəcək.

**Məsələn, VİP sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, sözügedən qanunlara dəyişikliklər yeni parlament seçkilərinə gediləcəyinin və yeni tərkibdə parlamentin formalaşdırılacağının siqnalıdır:** "Qanunlarda deputat səlahiyyətlərinin məhdudlaşdırılması, deputatların cəzalandırılması prosedurlarının daxili nizamnaməyə salınması növbədənkənar parlament seçkilərinin keçiriləcəyinin əsas əlamətidir. Hakimiyyət parlamenti buraxmağa hazırlaşır. Həm də bu onun göstəricisidir ki, iqtidar məcburiyyətdən nəzarət edə bilmədiklərini də parlamentə buraxmaq zorundadır. Yəni beynəlxalq təzyiq dözülməzdir. Deməli, yeni siyasi eranın başlanması haqda dediklərim təsdiqini tapır. Müxalifət bu siqnalı düzgün qavramalı, təşkilatlanmalıdır. Seçkilərə hazırlıq başlamalıdır. Ən geci gələn ilin payızına seçkilər olacaq. Büdcəyə transferlərin artırılması da seçkilərin olacağının indikatorudur".

**REAL Partiyasının Məclis sədri Erkin Qədirli isə BBC-Azərbaycancaya açıqlamasında deyib ki, qanunda edilən bu sərtləşdirmələr növbəti parlamentə hesablanıb və gələcək parlament seçkilərinin nisbətən demokratik olacağı ehtimalını yaradır:** "2016-cı ildə keçirilmiş referendumda parlamentin buraxılma səlahiyyətinin prezidentə verilməsini görəndə ağlıma ilk bu fikir gəmişdi. Bundan başqa, son 2 ildə deputatlarla bağlı etik qaydalara, nizam-intizam, daxili nizamnamə kimi məsələlərə edilən məhdudlaşdırmalar və cəzaların sərtləşdirilməsi, mandatın əldən alınmasına qədər hamısını toplayanda başqa izah qalmır. Belə bir məzmundakı qanun demokratik yolla seçilən parlament risk yaradacağı halda onu buraxmaq və ya ayrı-ayrı deputatları mandatdan məhrum etmək imkanı yaradacaq".

Qeyd edək ki, Əli Əliyev və bəzi digər müxalifətçilər, siyasi ekspertlər xeyli vaxtdır növbədənkənar parlament seçkilərinin keçirilməsi ehtimalının yüksək olduğunu bəyan etməkdədirlər. YAP-ın rəhbərliyi və hakimiyyətyönlü deputatlar isə növbədənkənar parlament seçkilərinə zərurət olmadığını bəyan edirlər. Gələn ilin sonlarında parlament seçkilərinin olacağı barədə hələ nə rəsmi qərar verilib, nə də bir rəsmi açıqlama səslənib. 2019-cu ilin sonlarında bələdiyyə seçkiləri keçiriləcək. Bələdiyyə seçkiləri ilində həm də parlament seçkiləri keçiriləcəksə, bu, Azərbaycan təcrübəsində ilk olacaq.



**Əli Əliyev:** "Hakimiyyət parlamenti buraxmağa hazırlaşır"



**Erkin Qədirli:** "Qanunda edilən sərtləşdirmələr növbəti parlamentə hesablanıb"



**Zahid Oruc:** "Deputatların etik davranışına belə təkliflər "göydən düşməyib...""

Hakim partiyanın deputatları isə bu fikirlə razılaşmırlar, onların fikrincə, dəyişikliklərdə uzaqgedən nəticələr axtarmaq əsassızdır, bu dəyişikliklər parlamentin daxili işidir.

Qanunlara edilən dəyişikliklər və əlavələrdə yazılır ki, deputat öz səlahiyyətlərindən maraqları üçün istifadə etməməlidir. O, hətta səlahiyyət müddətindən sonrakı dövrdə digər sahədəki fəaliyyətinə dəstək yaratmaq məqsədilə hər hansı bir hərəkət etməməlidir. Həmçinin deputat hər hansı maraqlı tərəflə, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələri və ya digər şəxslərlə keçirdiyi görüş və bunun detallarını ictimaiyyətə açıqlamalıdır. Bu məlumatlar protokollaşdırılaraq Milli Məclis Aparatında saxlanmalıdır. Sözügedən qanuna təkliflərdə nəzərdə tutulub ki, deputat hətta növbəti parlamentə seçilməsə, məşğul olacağı sahədə keçmiş deputatlığından dəstək kimi yararlanmamalıdır. Əgər deputatın xidməti vəzifəsinin icrası ilə maraqları arasında ziddiyyət yaranacaqsa, bu haqda İntizam komissiyasına məlumat verməlidir. Maraqlar toqquşarsa, deputat ictimai mənafeni həmişə öz maraqlarından üstün tutmalıdır. Onlar maraqlarının yarandığı məsələ ilə bağlı çıxış və ya səsvermədə iştirak edə bilməzlər.

**Keçmiş deputat, AMİP lideri Etibar Məmmədov isə bildirib ki, bu dəyişikliklərlə deputatlar üzərində nəzarəti gücləndirmək imkanı artır:** "Bununla deputatlar üzərində nəzarəti gücləndirmək imkanı artır. Maraqların toqquşması da buna aiddir. Hamıya məlumdur ki, bizdəki deputatlar həm məmur yerlərini saxlayırlar, həm də bizneslə məşğul olurlar, öz maraqlarını həyata keçirirlər. Buna da göz yumulur. Amma bu əlavəni etməklə istənilən deputatı "maraqlar toqquşması"nda ittiham etmək mümkündür".

**Hakimiyyətyönlü deputat Zahid Oruc isə bildirdi ki, bəzi siyasi təhlilçilərin və müxalifətçilərin yanaşması, qanuna edilən dəyişiklikləri növbədənkənar parlament seçkilərinin əlaməti adlandırması çox şişirdilmiş və tünd boyalarla təsvir edilmiş mənzərədir:** "Deputatların etik davranışına belə təkliflər "göydən düşməyib", son referendumdan sonra konstitusiyada deputatların mandatdan məhrum edilməsi ilə bağlı yeni maddə belə bir dəyişikliyə hüquqi baza yaradıb. Düşünmürəm ki, bu qanun deputatların imkanlarını məhdudlaşdıracaq və ya gələcək seçkilərlə bağlıdır. Bu qanun, sadəcə, parlamentin etik davranışlarını tənzimləyir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Nemət Pənahlı bir aylıq həbsindən danışdı

## Müxalifət düşərgəsinin bəzi liderləri də indiyə qədər uzun və qısamüddətli həbsxana həyatı yaşayıblar

**Milli azadlıq hərəkatının öncül isimlərindən olan, Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı bir aylıq inzibati həbs cəzasından sonra noyabrın 12-də azadlığa buraxılıb.**

N.Pənahlı "Yeni Müsavat"a deyib ki, səhhəti ilə bağlı problemləri vari. "Məndə bir xarakter var, həbsə düşdümsə, bilirəm ki, artıq dörd divar arasındayam. Üç il ərzində oxuya bilmədiyim kitabları oxudum, yaza bilmədiyim şeirlərimi yazdım. Ailəm demək olar hər gün mənə yemək gətirirdi. Binəqədi Rayon Polis İdarəsinin Müvəqqəti Saxlanma Təcridxanası təmirə bağlandığı üçün Nəsimi Polis İdarəsində cəzamı çəkdim. Ailəm, dostlarım isə bundan bir neçə gün sonra xəbər tutublar. Həbsimə reaksiyalar kifayət qədər qaneedici olub. Siyasilərdən hər kəs münasibətini bildirib. Hətta ələyhdarlarım belə həbsimin haqsız olduğunu söyləyiblər".

Xatırladaq ki, ilk dəfə 1988-ci il dekabrın 31-də həbs edilən N.Pənahlı 1989-cu il fevralın sonlarında azadlığa buraxılıb. İkinci dəfə 2011-ci ilin yanvar ayında həbs edilərək "silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə xuliqanlıqda müqəssir bilinərək" 6 il müddətinə azadlıqdan məhrum edilib. 17 mart 2016-cı il tarixində verilən əfv sərəncamı ilə azadlığa çıxıb.

N.Pənahlının bu həbsi bir məsələni yenidən aktual edib. Belə ki, müxalifət düşərgəsində hazırda təmsil olunan bəzi liderlər də indiyə qədər uzun və qısamüddətli həbsxana həyatı yaşayıblar. Onların adlarını qeyd edirik:



**İsgəndər Həmidov-Azərbaycan Milli Demokrat Partiyasının ("Bozqurdlar"ın lideri) sədri.** 1992-ci ilin avqust-oktyabr ayları ərzində 701 nəfər məhbusu həbsdən qanunsuz azad etmək, "İstiqlal" qəzetinin redaktorunu və əməkdaşını döymək, 400 min ABŞ dollarını mənimsəmək və israf etmək ittihamları ilə 1994-cü ildə 14 il müddətinə azadlıqdan məhrum edilib. 2003-cü ilin dekabrında əfv fərmanı ilə azadlığa buraxılıb.

**İsa Qəmbər-Müsavat Partiyasının keçmiş başqanı, Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri.** 1993-cü ildə Elçibəy hökumətinin süqutundan sonra həmin iqtidarın ilk həbs edilən rəhbərlərindən biri olub. 1993-cü il iyulun 16-da həbs edilən İsa bəy bir aydan sonra azad olunub.

**Arif Hacılı - Müsavat Partiyasının başqanı.** O da iki dəfə məhbus həyatı yaşayıb. İlk dəfə 2003-cü il prezident seçkilərindən sonra 16 oktyabrda həbs edilərək, 5 il müddətinə həbs cəzası alıb. 2005-ci ilin Novruz əfvi ilə azad olunub. İkinci dəfə A.Hacılı 2011-ci ildə həbs olunaraq iki il yarım müddətinə azadlıqdan məhrum edilib. 2012-ci il 22 iyunda ölkə başçısının imzaladığı əfv sərəncamı ilə azad olunub.

**Pənah Hüseyn - sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri.** 1996-cı ilin aprelində həbs edilən sabiq baş nazir 1997-ci ilin yanvarında azad olunub. Növbəti dəfə 2003-cü ilin prezident seçkilərindən sonra həbs edilən liderlərdən biri olub və 4 il yarım azadlıqdan məhrum edilib. 2005-ci ilin mart əfvində azadlığa çıxıb.

**Sərdar Cəlaloğlu - Azərbaycan Demokrat Partiyasının sədri.** Siyasi fəaliyyəti dövründə 3 dəfə həbs olunub. Sonuncu dəfə 2003-cü il prezident seçkilərindən sonra 4 il 6 ay müddətinə həbs edilib. 2005-ci ildə əfv sərəncamı ilə azadlığa çıxıb.

**İqbal Ağazadə -Ümid Partiyasının sədri.** 2003-cü ilin oktyabrındakı prezident seçkilərindən sonra həbs edilib. 4 il 6 ay cəza alan Ümid sədri 2005-ci ilin mart əfvində məhbus həyatı ilə vidalaşıb.

**Tural Abbaslı - AĞ Partiyanın başqanı.** Uzunmüddətli həbs dövrü 7 il öncəyə təsadüf edir. 2011-ci ildə "Ərəb baharı"nın təsiri ilə Bakıda təşkil edilən icazəsiz mitinqlərin əsas təşkilatçılarından biri kimi həmin il aprelin 2-də həbs olunub. Bir il üç aydan sonra 2012-ci il iyulun 22-də imzalanan əfv sərəncamı əsasında həbsxana divarları ilə vidalaşıb.

**Etibar Məmmədov** - hazırda aktiv siyasətlə məşğul olmasa da, Azərbaycan Milli İstiqlal Partiyasının lideri sayılır. 1990-cı il 20 Yanvar hadisələrindən sonra həbs edilib. 9 ay dünyanın ən qorxunc və ən ciddi qorunan - Moskva şəhərində yerləşən Lefortovo zindanında məhbus həyatı yaşayıb. Onun məşhur "Lefortovo gündəliyi" kitabı da həmin aylarda qələmə alınıb.

**İlqar Məmmədov - REAL Partiyasının sədri.** 2013-cü ildə İsmayıllı hadisələrindən sonra həbs edilərək, 7 il müddətində azadlıq məhrum edilib. REAL rəhbəri üç ay öncə azadlığa çıxıb. Onun cəzasının çəkilməmiş hissəsi şərti cəza ilə əvəz edilib.

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018

# Dövlət xidmətləri tam elektronlaşdırılacaq

## Elektron Hökumətin İnkişafı Mərkəzinin görəcəyi işlər açıqlandı; "Şəxsi kabinet" "ASAN xidmət"in elektron versiyası olacaq"

**İki gün əvvəl Bakıda ASAN nəzdində fəaliyyət göstərən Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı mərasimi keçirilib. Mərasimdə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak ediblər.**



Qeyd edək ki, Elektron Hökumətin İnkişafı Mərkəzi bu ilin martında prezidentin imzaladığı "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" fərman əsasında yaradılıb.

Fərmanda qeyd olunur ki, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq məqsədi ilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Mərkəzin inzibati binasında startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi fəaliyyət göstərəcək.

"İNNOLAND" Azərbaycanda, eyni zamanda onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir. "İNNOLAND"də fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır. Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasında kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyalarının test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və Akselerasiya dövründə "İNNOLAND"in innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.

Mərkəzdəki "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.

"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, Mirror, Yahoo və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.

"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Hotellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. Fox, ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə twitter şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.

**Elektron Hökumətin İnkişafı Mərkəzinin rəhbəri Fariz Cəfərovun dediyinə görə, mərkəz ölkədə elektron hökumət sahəsində siyasətin icrasını həyata keçirir:** "Mərkəzin binasında vətəndaşa birbaşa xidmət olmayacaq, vətəndaşlar xidməti e-gov.az portalı vasitəsilə alacaqlar. Mərkəz fasiləsiz fəaliyyət göstərəcək, vətəndaşlar elektron portaldan həftənin 7 günü, 24 saat xidmətlər alacaqlar. Bina zirzəmi qatı ilə birlikdə beş mərtəbədən ibarətdir. Orada ekosistem yaradılıb, yəni binada həm ideya sahibləri, həm o ideyanı inkişaf etdirənlər, investorlar, dövlət təşkilatları, biznes mühit və elmi camiyə olacaq"(Report).

**F.Cəfərov bildirir ki, mərkəzin binasında yerləşən Elektron Hökumətdə Azərbaycanda mövcud olan bütün dövlət qurumlarının informasiya sistemlərinin inteqrasiyası həyata keçiriləcək, elektron hökumət sahəsində elektron layihələr icra olunacaq:** "Məsələn, "ASAN Viza", "ASAN ödəniş", "ASAN wifi", "Elektron lisenziya", "Elektron kənd təsərrüfatı" və digər gələcəkdə yaranacaq elektron xidmətlərin inteqrasiyasını həmin təşkilat həyata keçirəcək".

**Qeyd edək ki, "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs mart ayından etibarən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin inzibati binasında fəaliyyət göstərir. Hazırda 200-dən çox işçisi var. F.Cəfərovun verdiyi məlumata görə, mərkəzin fəaliyyəti sayəsində hansı dövlət qurumunda ki, informasiya elektronlaşmayıb, onlar elektronlaşacaq:** "Dövlət qurumları arasında inteqrasiya tam təmin olunacaq, bu da imkan verəcək ki, vətəndaşlar qurumlara sənədlər təqdim etməsin, sadəcə, FİN nömrəsini təqdim etməklə onlara aid olunan məlumatlar tapılacaq. Bir dövlət qurumuna verilən məlumatı digər dövlət qurumu tələb etməyəcək.

Sonra hər vətəndaşın e-hökumətdə "şəxsi kabineti" olacaq. Vətəndaş e-imzası ilə daxil olub özünə aid məlumatları orada görəcək. Buna "qabaqlayıcı hökumət" deyilir, yəni vətəndaş dövlətə müraciət etmədən, dövlət vətəndaşa aid məlumatları ona göndərir. Məsələn, nəqliyyat vasitəsi cərimə olunubsa, avtomatik "Şəxsi kabinet"dəki cərimələr bölməsində ona baxmaq olacaq. "Təhsil" bölməsində diplomları, "Arayış" hissəsində əmək haqqını, əmək kitabçasının elektron versiyasını görə biləcək. Vətəndaşlar buradan öz məlumatlarını dəyişdirə biləcək. "Şəxsi kabinet" "ASAN xidmət"in elektron versiyası olacaq".

❑ **DÜNYA, "Yeni Müsavat"**






## Elxan Süleymanovun təşəbbüsü ilə "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabı işıq üzü gördü

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının layihəsi çərçivəsində nəşr olunan "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabı işıq üzü görüb. Kitabda Göyçay qəzasında bolşevik, erməni-daşnak qüvvələrinə qarşı 1918-ci ilin iyun-iyul aylarında baş tutmuş döyüşlərdə Türkiyə və Azərbaycan döyüşçülərinin qəhrəman mübarizəsi Türkiyə tarixşünaslığı əsasında tədqiq edilib. Qardaş Türkiyə tarixçilərinin Qafqaz İslam Ordusu və Azərbaycan döyüşçülərinin qəhrəman mübarizəsindən bəhs edən elmi əsərləri araşdırılıb, müqayisəli təhlil edilib.**

Məlumat üçün bildirək ki, bu kitab Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının layihəsi əsasında Göyçay döyüşlərinə həsr olunmuş ikinci kitabdır. "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri" adlı birinci kitab ötən ilin iyununda işıq üzü görüb. Layihənin rəhbəri AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanov, kitabın müəllifi tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlı, elmi redaktoru siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayev, rəyçisi isə pedaqoji elmlər üzrə fəlsəfə doktoru Dəyanət Musayevdir.

Kitab Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunub.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018

# Avropadan Zamirə Hacıyevaya ilə bağlı şok təklif - kitab yazmaq, film çəkmək




**Avropada siyasi motivlərlə sığınacaq alan mühacirlərlə yanaşı, vaxtilə yüksək vəzifələrdə təmsil olunub, sonradan ölkəmizi bu və ya digər səbəblərdən tərk etmiş imkanlı azərbaycanlılar da var. Onların bəziləri yatırım qoyaraq xarici ölkələrdə yaşamaq haqqı alıblar.**

Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva da xeyli vaxtdı Londonda yaşayır.O, son bir neçə aydır Böyük Britaniya, həm də Azərbaycan mətbuatının bir nömrəli obyektinə çevrilib. Yerli mətbuat onun baş döndərən xərclərindən, alış-verişdə xərclədiyi pullardan, o cümlədən, əldə etdiyi daşınmaz əmlakların qiymətlərindən yazır.





**Elbəyi Həsənli:** "Azərbaycanın oğru məmurlarının xaricdəki dəbdəbəli həyatı və qurduqları biznes imperiyaları haqqında birnəfəsə oxunulası kitab yaza bilərəm"
**Ələkbər Əliyev:** "Azərbaycanda kino industriyası olsaydı, Zamirə xanımın həyatından gözəl film çəkmək olardı"

Bizim üçün maraqlıdır, siyasi səbəblərdən Avropa ölkələrinə mühacirət etmiş soydaşlarımız xaricdə yaşayan bu cür imkanlı azərbaycanlılara qibtə edirlər, yoxsa onları qınayırlar, yaxud da onlara yazıqları gəlir?

**İsveçrədə mühacir həyatı yaşayan jurnalist Elbəyi Həsənli "Yeni Müsavat"a deyib ki, Zamirə xanıma nifrət də, qibtə də edənlər var:** "Ona yazığı gələnlər varmı? İstisna etmirəm. Olmamış olmaz. Ancaq burada söhbət miqyasdan gedə bilər. Əminliklə deyə bilərəm ki, harada yaşamasından asılı olmayaraq soydaşlarımızın böyük əksəriyyəti Zamirə xanıma qibtə edir. Biz maddi dünyada yaşayırıq. Bu dünyanın isə yazılmamış qanunları var. Kasıblar həmişə varlılara həsəd aparıblar. Hətta varlılar o pulu oğurluq yolla qazanmış olsalar da belə..."

E.Həsənliyə görə, Z.Hacıyevaya nifrət edənlər də az deyil. Onun fikrincə, maaşa baxan adam oxuyanda ki, sabiq bankirin arvadı bir şüşə şəraba 2.200 dollar verib, onda onun kimilərinə qarğış da edirlər.

**Jurnalistin gəldiyi qənaətə görə, Z.Hacıyevaya yazığı gələn adam tək-tük olar:** "İnsanlarımızın çoxu Zamirə xanımda olan oğurluq var-dövlətin heç olmasa bir hissəsinə sahib olmaq istərdi. Avropada yaşayan mühacir mühacirlərimizin əksəriyyəti kasıbdır. Ən yaxşı halda maaşa baxırlar. Əminəm ki, heç onlar da Zamirə xanıma baxıb, öz hallarına şükür etmək fikrində deyillər. Düşüncə odur ki, kaş bizim də əlimizə elə bir imkan keçəydi, biz də millətin var-dövlətindən bir az çırpışdırardıq. Təbii ki, müxalif mühacirlər xalqa məxsus olan varidatla indiki iqtidarda olanlardan çox-çox insaflı davranardı. Amma yenə də oğurluq və korrupsiya Azərbaycanda öz mövcudluğunu qoruyub saxlayacaqdı. Çünki bu naqislik artıq qanımıza işləyib. Tezliklə unudulası, gündəmdən çıxası deyil".

E.Həsənli iddia edir ki, kasıb mühacirlərdə Zamirə xanımda olan pul olsaydı, onlar da alış-verişə ciddi maraq göstərərdi.

**Elbəyi Həsənli bir paralel apararaq deyib ki, Zamirə Hacıyeva 2005-ci ilin fevralında Hacı Məmmədovun bandası tərəfindən qadın gözəllik salonundan çıxarkən oğurlandıqdan sonra ailəsindən 10 milyon dollar pul tələb olunub:** "Əminəm ki, Zamirə xanım pul xərcləməkdə ifrata varmasaydı, heç Hacı Məmmədovun diqqətini cəlb etməyəcəkdi. Eləcə də o, Britaniyada pul xərcləmədə şitini-şorbasını çıxarmasaydı, Britaniya hakim dairələri onun personasına bu qədər önəm verməyəcəkdi. Baxın, Britaniya KİV-ləri Zamirə Hacıyevanı "Mrs McMafia, "Lady Shopping" adlandırır. Artıq bu xanım dünya mediasının diqqət mərkəzindədir".

**E.Həsənli onu da deyib ki, ifrata varmaq, öz üstünlüyünü pul-para hesabına insanların gözünə soxmağın adı görməmişlikdir:** "Ona görə də əminliklə deyə bilərəm ki, Zamirə xanım məhz görməmiş adamdır. Bəli, mən də varlı olmaq istərdim, amma heç vaxt belə görməmişliyi nə özümə, nə də ətrafımda olanlara rəva görməzdim. Onu da deyim ki, Qərbdə varlı azərbaycanlılar çoxdur. Əksəriyyəti də xalqın pulunu oğurlamış adamlardır. O gün Britaniya mətbuatında oxudum ki, azərbaycanlı ailələrdən birinin Londonda 140 milyon dollar dəyərində mülki var. Sonra bu kimi məlumatları Google üzərindən araşdırdım. Xeyli maraqlı şeylər üzə çıxdı. Düşünürəm ki, Qərb mediasının yazdığı məqalələr əsasında Azərbaycanın oğru məmurlarının xaricdəki dəbdəbəli həyatı və qurduqları biznes imperiyaları haqqında birnəfəsə oxunulası bir kitab yaza bilərəm. O kitabı mən də yazmasam, başqa birisi nə vaxtsa yazacaq".

**İsveçrədə yaşayan daha bir mühacir həmkarımız, yazıçı-publisist Ələkbər Əliyev Z.Hacıyeva ətrafında gedən söz-söhbətlərin onda heç bir duyğu yaratmadığını söylədi:** "Maddi imkanı aşağı olmaq deyəndə ki, özümü heç kimlə müqayisə etmədiyim üçün hər hansı kateqoriyada şəxsimi görmürəm. Kimə görəsə imkanım aşağı, kiməsə görə də yuxarı ola bilər. Ona görə Zamirə Hacıyevanın pulları, xərcləri məndə heç bir duyğu oyatmır. İnsanlar özləri üçün ədalət-mədalət kimi sözlər uydurublar, həyatlarını çətinləşdiriblər. İllah ki, azərbaycanlıların pula çox çuşka münasibəti var, istər kasıbı, istərsə də varlısı pul məsələsində çuşkadırlar. Bizdəki varlı, pullu düşmənliyi də bir başqa aləmdir. Bu, kommunizm də deyil, belə deyib qiymətə mindirməyək. Biz hələ yolun başındayıq. Azərbaycanda biznes etikası yoxdur, işgüzar münasibətlərdə dərəbəylikdir, hər şey abstraktdır, kobuddur. Bizim adamların bir problemi var, o da danalıqdır. Amma dana olmaq, maraqsız olmaq demək deyil. İncəsənət üçün maraqlı danalar da var. Azərbaycanda kino industriyası olsaydı, Zamirə xanımın həyatından gözəl film çəkmək olardı. Hətta deyərdim, ssenari yazıb Holliwooda satmaq lazımdır. Əvvəl səni Hacı Məmmədovun dəstəsi qaçırdır, sonra azad edilirsən, kraliça kimi yaşamağa başlayırsan, daha sonra ərini tuturlar, Londona qaçırsan və həbs olunursan. Ekstradisiya qorxusu, pulları itirmək ehtimalı, səni tutsalar, pulsuz qalsan itinə kim baxacaq? Faciədir. Allah cəmi darda qalmışların köməyi olsun, Zamirə xanım da onların içində".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Uşaqlıqdan cinlə böyüdülənlərin kor inancı



**Samir Sarı**

**Dünən sosial şəbəkədə həmkarım, keçmiş iş yoldaşım Aynur Elgünəşin olduqca məzəli bir yazı-statusu ilə rastlaşdım.**

Onun bəhs etdiyi hadisə gündəmdə olan mövzuda, cin məsələsi barədə idi.

İndi həmin qeydləri müxtəsər şəkildə burada yazım, sonra mətləbə keçərəm.

Həmkarımızın bəhs etdiyi hadisə 15 il əvvəl olub. Onu bir qəzetə işə dəvət ediblər, gedib, redaktor olub. Baş redaktor işə başlayan Aynura Qurani-Kərimə sədaqət andı içdirmək istəyib, amma o, axırda "söz verirəm"lə canını qurtarıb (indi məlum olur ki, Aynur bacı andını pozub).

Bir gün gənc redaktor öz baş redaktorunun tövsiyəsi ilə Türkiyə mətbuatında gedən bir xəbəri tərcümə edib, qəzetə qoyub. Xəbər bundan ibarətmiş ki, "Cadu" adlı bir filmin təqdimatında şam aşıb, pərdə yanıb, kinoteatrı tüstü bürüyüb, Ebru Gündeş, Əmrah tıncıxıb.

Ertəsi gün Bakıya yağış yağıb, redaksiyanın tavanı damıb, baş redaktorun otağına vanna, ləyən, vedrə düzüblər. Mövhumatçı "media kapitanı" dərhal bu hadisənin nədən baş verdiyini müəyyən edib, Aynura cindən şübhələndiyini deyib və əlavə edib ki, əgər o, dünən o xəbəri yazmasaymış, bu gün bu hadisə olmazmış.

Tərs kimi, bir azdan su naqillərdə qısaqapanma yaradıb, işıqlar sönüb, kompüterin biri sıradan çıxıb. Baş redaktor tam əmin olub ki, redaksiyada cin var. Arada o, başıbəlalı yazının müəllifini çağırıb (axı cini redaksiyaya o müsəllət edib), yardım istəyib, cini qovmasını xahiş edib.

Sonra baş redaktor baxıcı yanına gedib, qayıdıb gələndə özü ilə bir şüşə bulanıq su gətirib, "Cadu" filminin prezentasiyasından yazan əməkdaşa içirmək istəyib. O, su içməyə razı olmasa da, bu "cinqovucu" mayeni redaksiyanın künc-bucağına, divar dibinə çiləməyə razılaşıb.

Bu yerdə Aynur Elgünəşin yazısından bir parçanı iqtibas edək: "Uzun sözün qısası, bir stəkan suyu götürüb düşmüşəm redaksiyanın canına, deyirəm: "Kül başına, ay Aynur, səni də bir ciddi jurnalist sayırlar, dəli hərləyirsən". Suyu töküb deyirəm: "Rədd ol buradan, kişşş". Uşaqlar da uğunur. Birdən işarə elədilər ki, kişi gəlir. Neynədim gülməyimi saxlaya bilmədim, götürüldüm pilləkənə tərəf. Arxadan çağırır: "Hara gedirsən?" Dedim: "Cini qapıdan çıxarıb gəlirəm".

Bəlkə də çox adam inanmaz, amma belə hadisə həqiqətən olub. Söhbətin ən ağlasığmaz tərəfi peşəsi etibarilə insanları xurafatdan, mövhumatdan uzaq tutmalı, oxucularını maarifləndirməli olan adamın birdən-birə bu qədər xurafatçı olmasıdır.

Belə insanlar var, özü də çoxdur. Onlara istənilən yerdə rast gəlmək olar.

Bu ölkədə cinə inanc ona görə şiddətlidir ki, biz, şair demişkən, gözümüzü dünyaya açanda ilkin, eşitdiyimiz üç-dörd sözdən biri "cin", biri "şeytan" olur.

Peşmansan, yerə qaynar suyu tökəsən, dərhal ağbirçəklərdən biri təpinir: "Neynəyirsən, a bala, cinin balalarını yandırdın axı".

Qaranlıqda evə qobu qırağı ilə qayıdırsan, mütləq kimsə deyir, çalış bu vaxtlar burayla gəlmə, cinlər əsasən qobuda olur.

Atların yalını didikləyən bir xırda heyvan var, gecələr minir atın boynuna, at canının hövlündən qaçır, qan-tərə batır, səhəri gün atı bu halda görənlər deyirlər ki, gecə atı cin çapıb.

Uşaqların yanında, xüsusilə də işıqların söndüyü vaxtlar, zülmət qaranlıqdakı çıraq işığında tez-tez keçmişdə kiminsə sancaqla cin tutub özünə fəhlə işlətməsindən danışırlar.

Həyətə əncir ağacları əkmirlər ki, cinlər o ağacın altına yığışırlar.

Gedirsən məktəbə, divlərdən, cinlərdən bəhs edən nağıl oxuyursan. Məsələn, hamımızın ilk nağılımız "Cırtdan" deyilmi? Qırışmal o nağılda divi aldadıb suda boğur. Məlikməmməd qızı divdən xilas edir.

Biz cinlər, divlər, ifritələr haqda nağıllarla böyüyürük, yekəlib əvvəlcə "Qərib cinlər diyarında", "Cin mikrorayonda", "Ələddinin sehirli çırağı" kimi filmlərə baxırıq. Daha sonra Hollivudda çəkilmiş dəhşət filmlərindəki fövqəlbəşər obrazlara tamaşa edirik. Belə olandan sonra ciddi ədəbiyyat oxumayanların, realist filmlərə baxmayanların cinə inamının dərin olması təbiidir.

Bizim cinli olmağımızın da, hər düz getməyən işimizdə cin-şeytan barmağı axtarmağımızın da səbəbi budur.

Əgər ortada cin varsa, cinin mövcudluğuna inam varsa, onu qovmaq üzrə ixtisaslaşan, bu işdən pul qazanmaq istəyənlər də mütləq olacaq.

**P.S.** *Bizim rayonda bir kənd vardı, adı Cinni .... li idi - kəndin adını ona görə yazmıram ki, sakinləri cinlənib redaksiyaya gəlməsinlər.*

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018



# Cinlər qərib diyarda

Zamin HACI
zaminhaci@gmail.com

"Arvad cini görəndə az qaldı özündən gedə. Ancaq Ələddin özünü itirməyib tez cinə əmr verdi:
- Bizə yemək gətir!"

*("Min bir gecə")*

**Qadının böyük qüvvə olduğundan yazmışdım. Bunun daha bir isbatı rayondan gəlmişdir. Orada qadın təzə ərə getdiyi kişini psixi xəstə oğlunun müalicəsinə cəlb etmişdir. Bunlar da oğulun cinini çıxartmaq üçün döyüblər, ancaq müalicə bir qədər bizim səhiyyə sisteminə uyğun başa çatıbdır: uşaq ölübdür. Hərçənd, sağ qala da bilərdi, necə ki, biz bəzən xəstəxanalarımızdan salamat çıxırıq. Əllinin əlliyə şans var bu işdə.**

Uzun sözün qısası, indi orda 6 nəfərə yaxın kişi xeylağını - cin çıxardanlar komandası deyək - tutub içəri basıblar. Nahaq yerə. Vətəndaşların inkişafının qarşısını alırıq. Az sonra buna qayıdarıq, hələlik qeyd edim ki, qadın təzədən ərə getməsə bu faktın baş tutması yəqin mümkün deyildi. Eşq-məhəbbət xarüqələr yaradır. Misal üçün, başqa bir nakam məhəbbət əhvalatına görə yalan olmasın, Quba rayonunun yarısı bu saat türmədədir. Orada qadın əmisi oğluna aşiq olmuşdu, qadının əri və bir sürü qohum-əqrəba isə bundan qəzəblənib əmioğlunu öldürmüşdü. Son məlumata görə orada da polis 6 kişini türməyə basmışdır, hər gün yeni tutulmalar haqda informasiya gəlir.

Əlbəttə, burada türkiyəli manıs Kibariyə xanımın mənfi rolunu diqqətə almalıyıq. Bütün günü efirdən "Ben de bu dağların nesine geldim, Meleşib quzular sesine geldim, Geldim emmoğlu" mahnısı versən gəlin yekəlib əmisi oğluna qoşulub qaçmalıdır. Efirin bu cür mənfi yan təsirlərini Nuşirəvan müəllim dəfələrlə qeyd edibdir. Patriot mahnılar verin, camaat da nahaq yerə qırılmasın. Misal üçün, mən bu yaxında avtobusda eşitdim, bir xanım yanıqlı səslə oxuyurdu: "Dağ çəksən də ürəyimə, İmzanı at kürəyimə". Təbii ki, bu mahnıya qulaq asan gənc nəsil heç vaxt əmisi oğluna pis gözlə baxmaz, halal süd əmmiş ərinin yanından uzaqlaşmaz. Yaxud, indicə internetdə ən populyar mahnılarımız arasından bu cümlələrə qulaq asdım: "Bilirəm sevirsən, amma mənə naz edirsən, Qəmini mənə verib, özün çıxıb gedirsən". Gör nə qədər gözəldir. Bunu içinə cin girənlərə də dinlətsən bəlkə cin çıxıb gedər.

Qadınlar temasına dönürəm. Srağagün Amerikada məşhur komiks rəssamı, "Hörümçək adam", "Fövqəladə dördlük", "Qara panter", "Dəmir adam" kimi obrazların yaradıcısı Sten Li 95 yaşında öldü. Bu adamın fantaziyaları dünya uşaqlarına nə qədər sevinc bəxş edibdir, bunu ölçmək mümkün deyildir. O cümlədən, yaratdığı populyar obrazların gətirdiyi qazancı. Ancaq çox adam bilmir ki, Sten Li-nin yaradıcılığına görə dünya bir qadına borcludur. O qadın Sten Li-nin arvadı, model və aktrisa Coan Li idi. (Sözgəlişi, Coan xanım keçən il 95 yaşında ölmüşdür. Sten Li ilə 69 illik evlilikdən sonra). 1960-cı illərin əvvəlində - 40 yaşında ikən Sten Li yaradıcılıq və həyat böhranı keçirdir, hər şeydən əlini üzmək istəyir. Bu zaman arvadı ona dəstək verir, deyir, ruhdan düşmə, sən bacaracaqsan və sairə. Nəticədə Sten Li Hörümçək adam-ı yaradır və yaradıcılığında böyük dönüş baş verir. Qadın böyük qüvvədir. Qadın adamı rəzil də edər, vəzir də. İki cür qadın var, ipək qarı, köpək qarı.

Ancaq biz yad ellərdən örnək almağı saxlayıb cin çıxartma temasına da yüngülcə qayıdaq. Məncə burada dövlət zəruri tədbirlər görməli, Cin Çıxartma Dövlət Xidməti, Səhiyyə Nazirliyi yanında Cin Agentliyi, ya da nəsə belənçik bir idarə yaratmalıdır. Yoxsa hərə bir yanda özfəaliyyətlə, özbaşınalıqla məşğuldur. Sovetin vaxtında bu işlər tam nəzarətdə idi, rəhmətlik Amaliya xanım bunun kinosunda çəkilmişdi. İndi isə qərib cinlər diyarında yiyəsiz qalıbdır.

Hüquq-mühafizə orqanlarının da üzərinə böyük məsuliyyət düşür. Çünki hamı cinlərin çıxarılmasından bəhs edir, ancaq cinlər adamlara necə girir, heç bundan danışan yoxdur. Deməli, cinlərin asudə gəzməsi, müasir parklarda əylənməsi üçün şərait var ki, onlar adamları tutub içinə girirlər. Profilaktik tədbir yoxdursa, cin içinə girəndən sonra cindar, molla, həkim üçün çətin olur. Lap həsab edək bu cinlərin bəziləri düşmən Avropa ölkələrindən gömrükdən yayınmaqla idxal edilib, sərhədi Əfqan Muxtarlı ilə qanunsuz keçib, bir neçəsi AXC-Müsavat dövründən qalıbdır. Bəs qalanlarına nə sözünüz? İşləmək lazımdır. Üç-dörd adam qalmışıq, onu da cinlər aparsın, ta nə oldu? Hərçənd, cinlərin də yaxşısını götürüb pisini atmalıyıq. Mütəxəssis rəyinə görə, yaxşı cinlər vardır. Belə cinlər milli mənəvi dəyərlərimizin qorunduğu ərazilərdə daha çox rast gəlinir.

Növbəti yazını qurd yağına həsr edəcəyəm, bizimlə qalın.





# Ermənistan ətrafında çənbər daralır: Bakı seçimi asanlaşdıra bilər

## ABŞ-ın İran və Rusiyaya qarşı sərtləşən sanksiyaları ən çox işğalçı ölkəni çətinə salıb; Azərbaycan Gürcüstan kimi Ermənistanın da enerji təchizatını öz üzərinə götürə bilər, əgər...; **Qərb KİV-i:** "Ermənistanın regionda izolyasiyada olması və dənizə çıxışdan məhrumluğu..."

**ABŞ Rusiyaya qarşı da sanksiyaları sərtləşdirməyə hazırlaşır. Az öncə Vaşinqton İrana qarşı yeni və son 40 il üçün ən kəskin sanksiyalara start verib. Bu da öncəliklə Rusiya və İrana qonşu olan ölkələri qəliz seçim qarşısında qoya bilər.**

Söz yox ki, həm Rusiya, həm də İran Azərbaycan üçün mühüm tərəfdaş ölkələrdir. Rusiya, Azərbaycan və İran həmçinin son illər bir neçə böyük nəqliyyat layihəsi üzrə ortaqdır. Xəzərlə bağlı ikitərəfli anlaşmalar da öz yerində. Azərbaycan habelə, dünyada yeganə ölkədir ki, eyni zamanda Rusiya və İranla sərhəddir. Bundan başqa, Moskva bizim əsas silah tədarükçülərimizdən biri olaraq qalır.

*****

Sadalanan səbəblərdən şimal və cənub qonşumuza qarşı ABŞ sanksiyalarının mümkün təsirləri Bakıda da ciddi müzakirə mövzusudur. Ancaq Azərbaycanın xarici siyasətdə balansa üstünlük verməsi, heç bir hərbi bloka qoşulmaması onun yaranmış vəziyyətdə seçim və manevr imkanını artırır. Eyni ehtimalı, əlbəttə ki, Ermənistan haqda söyləmək mümkün deyil. Əsas da ona görə ki, Rusiya onun 1 nömrəli hərbi-siyasi müttəfiqi, İran isə ondan ötrü "nəfəslik" rolundadır.

Beləcə, Tehran və Moskvaya qarşı sərt Amerika sanksiyalarının işə düşməsi ilə işğalçı ölkə ətrafında çənbərin getdikcə daraldığını söyləmək mümkündür.

*****

**Bu arada ABŞ-dakı "Euarasianet" analitik dərgisi yazıb ki, Ermənistanın konkret olaraq İranla bağlı seçim imkanı çox məhduddur. "Yeni Müsavat"ın məlumatına görə, təhlili məqalədə işğalçı ölkənin yerləşdiyi coğrafiya, o cümlədən dünya okeanına çıxışının olmaması və ciddi təbii resurslardan məhrum olmasına xüsusi diqqət çəkilib.**

"Ermənistanın regionda izolyasiyada olması və dənizə çıxışdan məhrumluğu onun İranla bağlı seçimini məhdud edir. Bu ölkədə təbii resurslar da azdır. Ölkənin enerji ehtiyacının 40%-ni ödəyən Metsamor AES isə köhnəlib və Ermənistanın enerji daşıyıcılarına ehtiyacının ödənməsi getdikcə təbii qazın idxalından daha çox asılı olur", - deyə analitiklər xəbərdarlıq ediblər.

**Məqalədə daha sonra deyilir:** "Ermənistan idxal etdiyi qazı əsasın Rusiyadan (Gürcüstan) vasitəsi ilə alır. Bundan əlavə, 2017-ci ildə İrəvan elektrik enerjisinin qarşılığında İrandan 400 milyon kub metrə yaxın mavi yanacaq idxal edib. Ötən ilin sonunda isə bəyan edilib ki, İrandan alınan qazın həcmi elektrik enerjisinə adekvat olaraq, simmetrik şəkildə 25% artırılacaq. Ancaq bu anlaşmanın gələcəyi, eləcə də Ermənistana İran qazının tədarükü məsələsi qaranlıq qalır. Bu ilin 6 noyabrında Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan bildirib ki, hadisələrin inkişafını diqqətlə izləyirlər. "ABŞ-ın İrana qarşı yeni sanksiyalarının Ermənistana mümkün təsirlərinin hərtərəfli öyrənilməsi davam edir" - xanım Naqdalyan deyib. Ermənistanın vəziyyətini daha da qəlizləşdirən həm də odur ki, ölkədəki qaz şəbəkəsinin əksəriyyəti Rusiyanın "Qazprom" şirkətinə məxsusdur. Rusiya və Ermənistan arasında çoxdandır ki, təbii qazın satış qiyməti haqda çəkişmə gedir. Beləcə, əgər İrəvan İrandan qaz idxalından imtina eləməli olsa, o zaman Rusiyadan daha güclü asılılığa düşəcək və qaz qiymətləri ilə bağlı onun mövqeyi qat-qat zəifləyəcək".

*****

Beləliklə, ABŞ-ın İrana qarşı yeni sanksiyaları nə qədər qəribə də olsa, işğalçı ölkənin Moskvadan qaz asılılığını artıracaq. Yeri gəlmişkən, ilin sonu üçün "Qazprom" yeni müqavilə üzrə Ermənistana satacağı qazı bahalaşdırmağa hədələyir. Vaşinqton isə məlumdur ki, "məxməri inqilab"dan sonra Ermənistanın Rusiya ağuşundan çıxmasına çalışır.

Lakin o halda Ermənistanın enerji təchizatı məsələsi ciddi şəkildə gündəmə gəlmiş olacaq. Çünki heç bir erməni hökuməti nə qədər qərbpərəst olsa da, "oturduğu budağı" kəsməyə cürət eləməz - xüsusən də qaza tələbatın artdığı qarşıdakı qış mövsümündə. Qaz isə həm də enerji daşıyıcısıdır. Elektrik stansiyaları onunla çalışır. Yəni bur sıra zəruri ərzaq məhsullarının qiymətinə bilavasitə təsir edən mühüm amildir.

Təbii ki, Azərbaycan Gürcüstan kimi Ermənistanın da qaza ehtiyacını ödəyə bilər. Rəsmi Bakı bir neçə dəfə bəyan edib ki, Dağlıq Qarabağ konfliktinin həllində ciddi dönüş olarsa, ən azından keçmiş DQMV ətrafındakı ərazilər işğaldan azad edilərsə, Azərbaycan Ermənistanın, eləcə də Dağlıq Qarabağın enerji təhlükəsizliyini bütünlüklə öz üzərinə götürə, üstəlik, bölgədə bütün qapalı sərhədlər və kommunikasiyalar açıla bilər.

Deməli, ABŞ İran və Rusiyaya qarşı sanksiyaları sərtləşdirməklə bərabər, Güney Qafqazın, o cümlədən Ermənistanın Qərbə inteqrasiyasında maraqlıdırsa, regionda on illərdir bağlı olan və yalnız Moskvanın mənafeyinə işləyən qapalı kommunikasiyaların, sərhədlərin açılmasını istəyirsə, o zaman Qarabağ ixtilafının həllində çevik diplomatiya yürütmək, hərəkətə keçmək zorundadır.

Bu xüsusda ötən ay ABŞ prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun bölgəyə səfəri az önəm kəsb eləmir və haradasa, Amerikanın Qarabağ "düyünü"nü açmaq yönündə ilk ciddi təşəbbüsü sayıla bilər. Yada salaq ki, Bolton İrəvanda olarkən demişdi ki, Ermənistan Rusiyadan uzaqlaşmasını, Türkiyə ilə sərhədlərin açılmasını istəyirsə, o zaman Dağlıq Qarabağ konfliktinin həllinə çalışmalıdır. Həll yolu isə məlum: beynəlxalq hüquq, BMT-nin Qarabağ qətnamələri...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# "Norveç Azərbaycanda səfirliyi neft layihələrinə görə açmışdı" iddiasına iki rəy

## Mirvari Qəhrəmanlı: "Norveç bizdən daha böyük neft ölkəsidir"

## İlham Şaban: "Hazırda neft sahəsində əlaqələr yüksələn xətt üzrə inkişaf edir"

**Norveç Krallığının Azərbaycandakı səfirliyini bağlayaraq, Gürcüstanda regional səlahiyyətlərlə səfirlik açmaq qərarı Azərbaycanda birmənalı qarşılanmayıb. Bir çoxları bu qərarın Norveçin Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyətdən narazılığının nəticəsi olduğunu bildirir. Hökumət mənbələri isə bildirirlər ki, Norveçin Azərbaycana marağı, ölkəmizlə əlaqələri neft amilinə görə yaranıb. Qeyd olunur ki, Krallıq ölkəmizdəki səfirliyini bu ölkənin və dünyanın neft nəhəngi olan "Equinor"(keçmiş "Statoil") şirkətinin maraqlarını təmin etmək üçün açıb.**

**Hüquq-müdafiəçisi Mirvari Qəhrəmanlı bildirir ki, Norveçin məhz neft amilinə görə Azərbaycanla əlaqələri inkişaf etdirməsi barədə deyilənlər reallığı əks etdirmir:** "Norveç bizdən daha böyük neft ölkəsidir. Onlarda neft insan hüquqlarından önə keçməyib heç zaman. Bizdə isə Avropanın enerji təhlükəsizliyi ortaya gələn kimi insan hüquqları arxa plana keçirilib".

**M.Qəhrəmanlı Norveç səfirliyinin Azərbaycanda insan və siyasi hüquqlarla bağlı yaxından maraqlanan, prosesləri izləyən bir nümayəndəlik olduğunu deyir:** "Onlar daim vətəndaş cəmiyyəti ilə aktiv işləyiblər, vətəndaş cəmiyyətinə dəstək veriblər. 2014-cü ildən bəri Azərbaycanda vətəndaş cəmiyyətinin düşdüyü ağır vəziyyət göz önündədir. Belə vəziyyətdə Norveç burada səfirlik səviyyəsində fəaliyyətinə lüzum görmür, ona görə də səfirliyini Tiflisə köçürür".

**"Norveç bu gün Azərbaycanda siyasi təmaslar üçün müstəvi görmür, bu müstəvini Gürcüstanda görür. İqtisadi təmaslar üçünsə Azərbaycanda daha yaxşı müstəvi görür"**

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə bildirir ki, Norveçin "Statoil" şirkəti Azərbaycanda 1992-ci ildən bp ilə alyans quraraq fəaliyyətə başlayıb:** "bp-Statoil alyansı Azərbaycanda imzalanan iki böyük müqavilədə təmsil olunub. Bunlar "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənməsi layihələridir. 90-cı illərin sonunda bu alyans dağılıb, hər şirkət özü müstəqil fəaliyyətə başlayıb. Norveçin Azərbaycanda səfirliyi böyük müqavilələr imzalanandan neçə il sonra açılıb.

"Statoil" Azərbaycanın Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum kimi neft-qaz boru kəmərləri layihələrində də iştirak edib. 2013-cü ildə şirkət "Şahdəniz" layihəsindəki payını 2,25 milyard dollar Malaziyanın "Petronas" şirkətinə satıb. Daha sonra Cənub Qaz Dəhlizi layihəsinin TANAP hissəsində iştirakdan imtina etdilər".





**İ.Şaban deyir ki, bir neçə ildən sonra "Equinor"un Azərbaycanın neft-qaz sektorunda iştirakı yenidən aktivləşib:** "Ötən il "Azəri-Çıraq-Günəşli" üzrə yeni müqavilədə iştirakçı oldular. Bundan əlavə, bu ilin mayında "Qarabağ" yatağının işlənməsi üzrə SOCAR-la hasilatın pay bölgüsü sazişi imzaladılar. Beləliklə, hazırda "Statoil" Azərbaycanda 3 böyük layihədə iştirakçıdır. Gedişat göstərir ki, şirkətin neft-qaz sektorumuza marağı getdikcə daha da artır. Yəni səfirliyin bağlanması bu proseslə bağlı ola bilməz".

**Ekspert deyir ki, Norveç iki il əvvəl Qazaxıstandakı səfirliyini bağlayıb:** "Ermənistanda, ümumiyyətlə, səfirliyi yoxdur. Norveç siyasi əlaqələrini biznes maraqları ilə quran dövlət deyil. Bu gün Azərbaycanda siyasi təmaslar üçün müstəvi görmür, bu müstəvini Gürcüstanda görür. İqtisadi təmaslar üçünsə Azərbaycanda daha yaxşı müstəvi görür. Bu müstəvidə əlaqələrimiz son illərdə artan xətlə inkişaf edir".

Xatırladaq ki, Azərbaycan və Norveç arasında diplomatik münasibətlər 5 iyun 1992-ci ildə qurulub. Norveç Krallığının Azərbaycandakı səfirliyi 1998-ci ildə fəaliyyətə başlayıb. Norveç həmişə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həllini dəstəkləyib.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Paşinyana qarşı hərbi müxalifət meydana çıxa bilər

## Serj Sərkisyanın öz partiyasının deputatlığa namizədlər siyahısında olmamasının sirri...

**Ermənistanın eks-prezidenti və Respublika Partiyasına hələ də sədrlik edən Serj Sərkisyan hakimiyyətdən uzaqlaşdırılandan bu yana ilk dəfə siyasi nitqlə çıxış edib və Qarabağ məsələsində "axıradək mübarizə aparacaqlarını" bildirib.**

Virtualaz.org xəbər verir ki, Ermənistanın "Hraparak" ("Meydan") qəzeti Serj Sərkisyanın ötən bazar günü Respublika Partiyasının rəhbər orqanının-Şurasının qapalı iclasında proqram nitqi ilə çıxış etdiyini yazır. Həmin iclasda Respublika Partiyasının dekabrda keçiriləcək növbədənkənar parlament seçkilərində iştirakı barədə qərar qəbul edilib. Lakin partiyanın seçki siyahısına Serj Sərkisyan yox, keçmiş müdafiə naziri Vigen Sərkisyan başçılıq edəcək.

Sərkisyanın çıxışının əsas tezisi bundan ibarət olub ki, partiya yalançı müxalifətçiliklə məşğul olmayacaq və hakimiyyətin istənilən bəyanatına opponentlik edəcək.

"Əgər hakimiyyət ölkə üçün faydalı addımlar atacaqsa, biz onu birmənalı şəkildə dəstəkləyəcəyik, əks halda, biz onların daşını daş üstündə qoymayacağıq"-Sərkisyan deyib.

**Qəzetin yazdığına görə, Sərkisyanın bu təhdidi əsasən Qarabağ məsələsi ilə bağlı olub.** "Bu məsələdə biz güzəştə gedən deyilik, axıra qədər mübarizə aparacağıq"-Serj Sərkisyan iclasda qeyd edib.

Sərkisyanın çıxışı barədə qəzetə məlumat verən mənbə deyib ki, xüsusi xidmət orqanlarının keçmiş rəhbəri, Qarabağ məsələsi üzrə xüsusi səfir olmuş David Şahnazaryanın Respublika Partiyasının seçki siyahısında yer alması da Sərkisyanın həmin mövqeyinə əyani sübutdur.

Bəs Serj Sərkisyanın adının Respublika Partiyasının parlament seçkilərində namizədlər siyahısına daxil edilməməsi nə ilə bağlıdır? Serj Sərkisyan hakimiyyətdən getdikdən sonra ilk dəfə partiyasının toplantısında Paşinyan hakimiyyətini hədələməsi seçkidə xalqın səsini almağa hesablanmış populist bəyanatdır, yoxsa arxasında Sərkisyanın hücuma keçəcəyi planının mövcud olması dayana bilər?

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, namizəd siyahıları tərtib edilərkən Respublika Partiyası öz maraqları baxımından düzgün hərəkət edir. Respublika Partiyasının ətrafında bir neçə xırda partiya birləşərək seçkiyə gedir. Digər partiyalar da bloklar yaradır. Serj Sərkisyan ölkədə xalq arasında nüfuzunun olmadığını dərk etdiyindən partiyasının deputatlığa namizədlər siyahısına adının daxil edilməsinə razılaşmayıb:** "Serj bilir ki, ölkə əhalisinin əsas hiddəti məhz keçmiş hakimiyyətin lideri kimi ona qarşıdır. Eyni zamanda keçmiş baş nazir Karen Karapetyana qarşı da əhalidə hiddət var. Ona görə Karen Karapetyan da namizədlər siyahısında yer almayıb. Serj Sərkisyanın və Karen Karapetyanın adlarının olduğu siyahı ilə seçkiyə gedən partiyaya seçicilərin əksəriyyəti səs verməzdi. Bunu nəzərə alan Sərkisyan-Karapetyan cütlüyü partiyalarının maraqları sarıdan düzgün hərəkət ediblər. Amma bütün erməni xalqına bəllidir ki, Respublika Partiyasını idarə eləyən, seçki prosesini maliyyələşdirən, partiyanın taktiki addımlarını müəyyənləşdirən Serj Sərkisyan-Robert Köçəryan-Karen Karapetyan üçlüyüdür. Bu üçlüyün Rusiya ilə sıx əlaqəli olduğu da hər kəsə məlumdur. Onlar son aylardakına nisbətən indi daha inamlıdırlar. Hakimiyyəti təhvil verdikdən sonra düşdükləri sıxıntılardan çıxıblar və aktiv fəaliyyətə başlayıblar. Hətta partiyanın rayon təşkilatları da aktiv fəaliyyətdədir. Respublika Partiyası sözün əsl mənasında ana müxalifətçilik etməyə başlayıb və get-gedə hakimiyyətə qarşı radikallaşmaqdadır. Onlar proqnozlaşdırırlar ki, Yuri Xaçaturovun KTMT-nin baş katibi vəzifəsindən istefaya məcbur edilməsində Nikol Paşinyanın nüfuzuna xələl gətirəcək. Çünki Astana toplantısı göstərdi ki, əslində Paşinyan ciddi məğlubiyyətə uğrayıb, Ermənistanın KTMT-dəki mövqelərinə, hüquqlarına xələl gətirib. Bu vəziyyət Paşinyana daxildə hücumlar üçün fürsət yaradıb".



**Q.Hüseynli qeyd etdi ki, hətta bu gün Ermənistanda Paşinyana qarşı hərbi müxalifətin də formalaşa biləcəyi ehtimalından danışılır:** "Mənim zənnimcə, Serj Sərkisyanın uzun müddətdən sonra məhz indi o cür iddialı və sərt danışmasının arxasında Paşinyanın Astana məğlubiyyəti dayanır. Artıq indidən söyləmək mümkündür ki, parlament seçkiləri İrəvan meri seçkilərinə bənzəməyəcək, Paşinyan üçün asan keçməyəcək. Paşinyanın əsas tərəfdarları, daha çox nüfuzu məhz İrəvandadır. Ucqar bölgələrdə, kəndlərdə Paşinyana dəstək paytaxtdakı səviyyədə deyil. Bölgələrdə Respublika Partiyası və onların tərəfdarlarının Paşinyanın imicini aşağı salmağa yönəlik təbliğat apardığı barədə məlumatlar yayılır. Seçki kampaniyasında bu təbliğat daha şiddətli xarakter alacaq. Burada Rusiyanın da barmağının ola biləcəyi ehtimalını mən istisna etmirəm. Çünki Serj Sərkisyan, Robert Köçəryan və Karen Karapetyan Rusiya ilə yaxın adamlardır. Rusiyadan müəyyən qüvvələrin bu üçlüyə dəstəyi ola bilər".

Politoloq hesab edir ki, Respublika Partiyası seçkidə qalib gələ bilməsə də səslərin müəyyən hissəsini Paşinyandan qopara bilərlər. Nəticə etibarilə daha inamlı qələbə çalmasına, daha inamlı hakimiyyət formalaşmasına əngəl yaratmaları istisna deyil.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Qarabağ ətrafında situasiya dəyişəcək - mühüm gözlənti

## Kreml-İrəvan münasibətləri ciddi sınaqdan keçir; Azərbaycan "qızıl saat"ını gözləyir; **keçmiş diplomat:** "Rusiya getdikcə Ermənistandan tam uzaqlaşacaq..."

**Dağlıq Qarabağ "düyünü" bu il də açılmamış qaldı. İlin bitməsinə təxminən ayarım qalsa da, artıq bunu əminliklə söyləmək mümkündür. Ermənistanda 9 dekabra təyin edilmiş erkən parlament seçkiləri bitəndən sonra ən yaxşı halda sülh danışıqları gələn ilin əvvəlində canlana bilər. O da konfliktə cəlb olunmuş və "vasitəçi" adlandırılan maraqlı dövlətlərin iradə göstərəcəkləri halda. Söhbət ilk növbədə Rusiya və ABŞ-dan gedir.**




Aydın məsələdir ki, Qarabağ münaqişəsinin həllində diplomatik təkan üçün konflikt ətrafında situasiya, status-kvo, regional şərtlər dəyişməlidir. Bu da hələ ki daha çox Rusiyadan asılı görünür. O Rusiya ki, onun işğalçı ölkə ilə münasibətləri hazırda ciddi bir sınaqdan keçməkdədir. Başqa sözlə, Kremlin Ermənistana münasibəti Paşinyan komandasının inqilab sayəsində iqtidara gəlişindən sonra hələ dəqiqləşməyib. Ən azı, bunu bir az da gözləmək lazım gələcək. Bu isə 9 dekabr seçkilərinin nəticələrinə birbaşa bağlıdır.

Hələliksə Rusiya Ermənistanda öz varlığını büruzə vermək üçün qərbyönlü Paşinyan hökumətinə ara-sıra xatırlatmalar, hətta sürprizlər edir. Ötən həftə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Astanada keçirilən növbəti toplantısında İrəvanın yeni baş katib məsələsində fiaskosu da eyni qəbildən sürpriz sayıla bilər. Çünki bəllidir ki, KTMT hər şeydən öncə "Rus NATO-su"dur və Avrasiya Birliyindəki kimi, orada da əsas söz sahibi Rusiya, prezident Vladimir Putindir.

Bəs bundan sonrakı Moskva-İrəvan münasibətlərinin perspektivi necə proqnoz edilir? Siyasi təhlilçilərin bu yöndə fikir və ehtimalları maraq doğurur.

*****

**"İrəvanın KTMT-dəki məğlubiyyəti Ermənistanın Rusiya ilə münasibətlərinin səviyyəsini göstərən faktlardan, sadəcə, biridir". Bu sözləri axar.az-a açıqlamasında Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib. Sabiq nazirə görə, bunu bir növ Paşinyanın qərbyönlü siyasətinin nəticəsi də adlandırmaq olar.**

"Ümumiyyətlə, bir daha təkrarlayım ki, Rusiya getdikcə Ermənistandan tamamilə uzaqlaşacaq. Bu, təbii ki, geosiyasi səbəblərdən qaynaqlanır. Bu yöndə ilk addım demək olar ki, atıldı. Növbəti addımların ardı isə qarşıdakı dönəmlərdə gələcək", - deyə eks-diplomat ehtimal edib. Onun sözlərinə görə, Moskvanın bundan sonrakı addımlar isə müxtəlif ola bilər: "Hesab edirəm ki, Rusiya Ermənistanı beynəlxalq təşkilatlarda müdafiə etmək siyasətindən uzaqlaşacaq, İrəvana verilən kreditlərdə ləngimələr olacaq. Bundan başqa, Rusiyada və Ermənistanın daxilində iki dövlət arasındakı "dostluğa" aid tənqidi fikirlər daha da güclənəcək. Bütün bunlarla yanaşı, proseslərin aqitasiya və təbliğat hissəsində də mövqelərin dəyişməsinin şahidi olacağıq".

**Keçmiş diplomat Azərbaycanın KTMT-də müşahidə statusunun alması mümkünlüyünə də toxunub. Onun qənaətincə, həmin status Ermənistanla bu və ya digər rəqabət formasında olmayacaq.** "Düzdür, hələlik mənzərə tam aydın deyil. Ancaq hesab edirəm ki, Azərbaycanın KTMT-də bu və ya digər addımı hansısa şərtlər daxilində olmalıdır. Məhz bunun nəticəsində də konkret uduşlarımızı və ya mövqeyimizi zəiflədən amilləri nəzərə ala biləcəyik", - deyə o əlavə edib.

*****

Xatırladaq ki, KTMT-nin bu il üçün yekun toplantısını dekabrın 6-da Sankt-Peterburqda keçirmək qərara alınıb. Azərbaycan prezidenti İlham Əliyevin həmin toplantıya qatılıb-qatılmayacağı hələlik məlum deyil. Söhbət Azərbaycanın müşahidəçi statusuna razı olub-olmayacağından gedir.

Bir şey dəqiqdir ki, Bakı işğalçı ölkənin təmsil olunduğu siyasi və hərbi bloklarda, xüsusən də KTMT-də onu sıxışdırmaq, təkləmək kursu aparır. Bunun nəticəsidir ki, "Rus NATO-su"nda Azərbaycanın dostları daha çoxdur, nəinki Ermənistanın. Əslində işğalçı ölkə bu qurumda təklənmiş durumdadır. Təbii ki, yekun söz yenə Rusiyaya məxsus olaraq qalır.

Rusiya isə hələ ki Ermənistana regionda özünün yeganə qanuni forpostu kimi baxmaqda davam edir. Bəzi proqnozlara rəğmən, Kremlin bu forpostu elə-belə əldən verəcəyi və Ermənistanı tərk edəcəyi də ağlabatan görünmür. Yaxud Rusiya bunu İrəvana böyük bir sürprizin qarşılığında edə bilər. Hansı sürprizin? Onu yəqin ki, yaxın zaman göstərəcək. Odur ki, Azərbaycan ona kimi Qarabağ ətrafında situasiyanı diqqətlə izləmək və öz "qızıl saat"ını gözləmək zorundadır.

Paralel surətdə ordumuzun hərbi və döyüş hazırlıqları, qardaş Türkiyə ilə birgə hərbi təlimlər davam edəcək və intensivləşəcək. Azərbaycan müasir silahlar almağa, özünün hərbi-sənaye kompleksini gücləndirməyə də xüsusi diqqət ayıracaq. Təsadüfi deyil ki, gələn il üçün büdcədə hərbi xərclərin daha da artırılması nəzərdə tutulur.

*****

Azərbaycanın "qızıl fürsəti" gözlədiyini düşmən tərəf də pis bilmir. Hərçənd Paşinyan iqtidarı xarici siyasətdə Rusiya kursundan uzaqlaşmaq jesti göstərir - Rusiya işğalçı ölkənin əsas varlıq qarantı olaraq qalsa da.

**"Rusiya Silahlı Qüvvələri və sərhədçiləri Ermənistanın təhlükəsizliyini təmin etməkdə mühüm rol oynayırlar". Bunu Ermənistanın müdafiə naziri David Tonoyan deyib (teleqraf.com). Onun sözlərinə görə, Ermənistan-Rusiya yaxınlaşması Cənubi Qafqazda formalaşmış status-kvo məntiqindən irəli gəlir.**

"Ermənistan Cənubi Qafqazda Rusiyanın əsas strateji tərəfdaşıdır. Rusiya Ermənistana Azərbaycanla hərbi balansın qorunmasında kömək edir", - deyə o qeyd edib.

**Tonoyanın fikirlərini şərh edən erməni politoloq Aşot Sərkisyan isə hesab edir ki, Rusiyadan İrəvana verilən bu hərbi dəstək həm də Ermənistan-İran və Ermənistan-Türkiyə sərhədlərinin qorunması ilə bağlıdır:** "Ermənistan bölgədə təcrid edilmiş vəziyyətdədir. Türkiyə-Azərbaycan tandeminə qarşı Ermənistan-Rusiya yaxınlaşması ən yaxşı seçimdir. Çünki Suriya, İraq və Kiprdə hərbi cəhətdən möhkəmlənən Türkiyə Ermənistana da hərbi müdaxilə edə bilər. Buna görə də real vəziyyətə baxsaq, Ermənistanın Rusiya ilə strateji və tərəfdaşlıq əlaqələrini inkişaf etdirməkdən başqa alternativi yoxdur. Rusiya Ermənistanın təhlükəsizliyini və xalqının fiziki varlığını təmin edən bir ölkədir".

**Aşot Sərkisyan hesab edir ki, İran sərhədi də Ermənistana təhlükə yaradır.** "İranın dağılması vəziyyətində Güney Azərbaycan Azərbaycan Respublikasına birləşə bilər. Nəticədə Böyük Azərbaycan yaranacaq ki, bu vəziyyətdə Azərbaycanın qarşısını almaq mümkün olmayacaq. Hesab etmək olar ki, Rusiyanın Ermənistana önəm verməsi, bunun qarşısının alınmasına yönəlib" - erməni ekspert əlavə edib.



# ATƏT bu gün cəbhə xəttində monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 14-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Aleksandr Nepokrıtıx keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Genadi Petrika, Oqnyen Yoviç və YSPQ-nin rəhbəri polkovnik-leytenant Harri Okoner aparacaqlar.

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018

# İçərişəhərdə restoranlarla bağlı son durum: sakinlər narazıdır

## "Manqal" və "Sehrli təndir" restoranları təmir üçün bağlansa da, içəridə iş aparılmır; "İmkanlı adamlar, bəzi məmurlar istədiklərini edirlər..."

**Oktyabrın 31-də "Yeni Müsavat" qəzetində "İçərişəhərdəki restoranların bağlanması ilə bağlı ilginc iddialar" başlıqlı yazı gedib. Yazıda İçərişəhərdə fəaliyyət göstərən bir neçə kafenin bağlanması haqqında məlumatlar qeyd olunmuşdu.**

İçərişəhər sakinləri redaksiyamıza bu yazı ilə bağlı təşəkkür məktubu göndərərək bildiriblər ki, əslində onların problemləri bununla bitmir. Onların sözlərinə görə, ərazidə xeyli sayda tüstülənən yeməkxanalar, restoranlar var ki, bu da onların narahatlığına səbəb olur.

"Yeni Müsavat"ın reportyor qrupu olaraq, sakinlərdən məlumat aldıqdan sonra təkrarən əraziyə yollanıb, oradakı şəraitlə maraqlandıq.

Metronun "İçərişəhər" stansiyasının arxasındakı girişdən İçərişəhərə daxil olan kimi bizi samovarçı qarşıladı. O, yol kənarında qaladığı samovarı göstərib, kafeyə keçib, çaylarından dadmağımızı təklif etdi. Öyrəndik ki, kafe ərazidə yeni fəaliyyətə başlayıb və turistləri cəlb etmək üçün bu cür metoddan istifadə edirlər. Eləcə də İçərişəhərdə gəzdiyimiz zaman xeyli sayda yeni restoranın fəaliyyətə başladığının şahidi olduq.

Restoranlardan çıxan kabab qoxusunu içimizə çəkə-çəkə Qoşa Qala qapısına yaxınlaşdıq. Burada müşahidə etdik ki, ərazidəki "Manqal" və "Sehrli təndir" restoranlarının içərisi sökülüb. Lakin onlarla üzbəüz digər kafelərin fəaliyyətinə heç bir məhdudiyyət qoyulmayıb. Kafenin qarşısında oturan mühafizəçi bildirdi ki, əslində restoranların fəaliyyəti yaxın zamanlarda bərpa olunacaq. Bildirildi ki, hazırda həmin restoranlarda təmir işləri aparılır. Təmir başa çatdıqdan sonra fəaliyyətlərinə davam edəcək. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilmişdi ki, restoranların fəaliyyəti müvəqqəti dayandırılıb. Bu, ərazidə yenidənqurma işlərinin aparılması ilə əlaqələndirilmişdi. İdarənin əməkdaşı Zeynəb Cahan "Trend"ə açıqlamasında söyləmişdi: "İçərişəhər bütövlükdə mədəni tarixi abidə olduğuna görə orada bərpa-yenidənqurma işləri aparılır. Bu işlərlə əlaqədar Qoşa Qala qapısının yaxınlığında yerləşən restoranların fəaliyyəti dayandırılıb. Yenidənqurma işləri bitdikdən sonra həmin obyektlər fəaliyyətə başlayacaq".










Müşahidə etdik ki, restoranların içərisi tamamilə dağıdılsa da, yan divarları olduğu kimi qalmaqdadır. Eləcə də ərazidə hansısa yenidənqurma işlərinin aparılmasının şahidi olmadıq.

**Bizimlə söhbətdə İçərişəhərin bir neçə sakini bildirdi ki, SSRİ süquta uğrayan zaman Bakı şəhəri başdan-başa kolxoz bazarına çevrilib:** "Mərkəzi küçələrdə yeməkxanalar, mağazalar, kiosklar və kafelər göbələk kimi günü-gündən artırdı. Lakin sonrada mərhum prezident Heydər Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin o zamankı başçısı Rafael Allahverdiyevə göstəriş verdi ki, şəhəri gözdən salan budkalar tezliklə yığışdırılsın, şəhər əvvəlki simasına qaytarılsın. Belə də oldu. Hazırda isə həmin vəziyyət Azərbaycanın açıq muzeyi olan İçərişəhərdə baş verməkdədir. Burada özbaşınalıqdır. İmkanlı adamlar, bəzi məmurlar istədiklərini edirlər. Bunlardan başqa, Qız Qalasının ətrafında saysız-hesabsız mağazalar tikilib və cərgə-cərgə düzülüb. Bunların ucbatından turistlər köhnə abidələri ziyarət edə bilmirlər".

Onu da qeyd edək ki, artıq Qoşa Qala qapısının qarşısındakı ərazidə vaxtilə sandıq formasında piştaxtalar qoyub, suvenir satanlar yığışdırılıb. Hazırda ərazidə yol kənarında sıra ilə, səliqəli formada dükanlar tikilib. Bu dükanlarda suvenirlər, müxtəlif şirkətlərin məhsulları, Azərbaycan mətbəxinə xas olan qidalar bişirilərək satılır. Sakinlər onu da söylədilər ki, ərazidə bu cür səliqə yaratmaq işlərini müsbət qiymətləndirirlər. Lakin digər restoranların fəaliyyəti onları narahat edir.

Ərazidəki dükanlarda icarə haqqının nə qədər olmasını da öyrənməyə çalışdıq. Satıcılar konkret rəqəm deməsələr də bildirdilər ki, yerindən asılı olaraq icarə qiymətləri 1500-2000 manat arasında dəyişir. Sandıq tipli piştaxtaların icarə haqları isə aylıq 300 manat olub.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# İnternetin inkişafı televizorların satışına təsir edibmi?

## Satıcı: "İnsanlar smart televizorlara daha çox maraq göstərirlər"

**Dünyada texnologiyanın inkişaf etməsi, ağıllı mobil telefonların yayılması, insanların informasiya almaq, əylənmək vasitəsinə də təsir göstərib. Belə ki, statistikalara görə, dünyada insanlar informasiyanı daha çox mobil telefon vasitəsilə saytlardan və sosial şəbəkələrdən alırlar.**

Azərbaycanda da demək olar ki, hər kəsin ağıllı telefonu var. Məlumatlara görə, Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. Eyni zamanda dünyada aparılan sorğulardan belə aydın olur ki, insanlar artıq televizordan uzaqlaşırlar. Onlar televizorları əllərində hər yerə daşıya biləcəkləri mobil telefon, planşet, netbuklarla əvəz edirlər.

Bəs Azərbaycanda durum necədir?

"Yeni Müsavat"ın əməkdaşı olaraq məsələ ilə bağlı məlumat almaq üçün televizor satılan mağazalara yollandıq. Mağazalarda olduğumuz zaman öyrəndik ki, demək olar ki, bütün növ televizorların qiymətlərində endirim var. Satıcılar bildirdilər ki, qiymətlərin bəziləri kampaniya çərçivəsində endirilib. Lakin ümumilikdə 2015-ci illə müqayisədə bütün növ televizorlar ucuz satılır.






**Satıcı Kamran Həsənovun sözlərinə görə, hazırda alıcılar daha çox smart televizorlara üstünlük verirlər:** "Smart televizorların qiymətləri digərləri ilə müqayisədə bir qədər yüksəkdir. Onlardan daha çox 32 düyümlülər (82 sm) satılır. Çünki 32 düyümlü televizorlar digərləri ilə müqayisədə həm də ucuzdur. Son zamanlar istehsal olunan böyük ekran televizorların əksəriyyəti smartdır. Lakin smart olmayan televizorlar da var ki, bunları da alanlar az deyil. İri ekran televizorlara daha çox endirimlər və kampaniyalar olur. Məsələn, 109 ekran (43 düyümlü) smart televizorun qiyməti markasından asılı olaraq 750-950 manat arasında dəyişən qiymətlərlə satılır. Son zamanlar bazara ənənəvi markalarla yanaşı, Çin istehsalı olan yeni markalar da gəlib. Onların qiymətləri ucuz olsa da, satışı elə də yüksək deyil. Çünki insanlar markanı tanımadıqları üçün etibar etmirlər. Bu televizorlardan smart olanları digərləri ilə müqayisədə daha ucuzdur. 2015-ci ildə manatın devalvasiyasından sonra bütün növ elektronika məhsulları ilə yanaşı, televizorların da qiymətləri qalxmışdı. Lakin hazırda həm kredit şərtləri sərfəlidir, həm də qiymətlər həmin dövrlə müqayisədə xeyli aşağıdır".

Mağazalarda olduğumuz zaman öyrəndik ki, internetin geniş yayılmasına baxmayaraq, televizor alanların sayı az deyil. Mütəxəssislər bildirdilər ki, smart televizora marağın artmasının səbəbi onun internetə rahat şəkildə qoşulmasıdır. Bu televizorları ağıllı telefonlarla da əlaqələndirmək mümkündür. Ona görə də insanlar iri ekranda film seyr etmək və ya digər videoları izləmək üçün televizorlardan istifadə edirlər.

Satıcılarla söhbətimiz zamanı onlar da bildirdilər ki, son zamanlar "Smart boks" axtaranların sayı artıb. Məlumat üçün qeyd edək ki, bu cihazlar vasitəsilə smart olmayan televizorları da internetə qoşmaq mümkündür. Yəni bu cihazın köməkliyi ilə adi televizor smart televizora çevrilir.

Bəs smart televizor nə deməkdir?

"Smart" funksiyasının varlığı sizin televizorunuzu adi televizorla müqayisədə online video baxma, online oyun oynama, bir sözlə, internetin köməkliyi ilə bir media mərkəz kimi bütün funksiyalardan yararlanmağa imkan verir.

Smart televizorlarda internetə giriş LAN interfeysli şəbəkə kabeli və yaxud Wi-Fi vasitəsi ilə həyata keçirilir. Kiçik ekran televizorlarda internetin 1-2 Mbit/san sürəti kifayət edir. İri ekranlarda isə 10 Mbit/san lazımdır. Smart Tv-lər klaviatura, siçan, magic motion pultu, səs və hətta jest ilə idarə edilmə funksiyasına malikdirlər.

Son zamanlar 3 D televizorlar da satışdadır. Bunun üçün xüsusi eynəklərdən istifadə etmək lazımdır. Eyni zamanda görüntünün də 3 D formatında olması gərəklidir.

Yəni texnologiya inkişaf etdiyi kimi, bir zamanlar "sehirli qutu" kimi adlandırılan televizorlar da inkişaf edib, daha çox funksiyanı özlərində birləşdirib.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 noyabr 2018-ci il Çərşənbə № 242 (7131) Qiyməti 60 qəpik

**Xəbər**

## Sahibsiz itlər Bakı küçələrində təhlükə saçır - SOS

yazısı səh.4-də

**Gündəm**

### "Deputatlarla bağlı qanunlara dəyişiklik yeni parlament üçündür" iddiası



**Zahid Oruc:** "Deputatların etik davranışına belə təkliflər "göydən düşməyib..."

yazısı səh.5-də

# ERMƏNİSTAN ƏTRAFINDA ÇƏNBƏR DARALIR: BAKI SEÇİMİ ASANLAŞDIRA BİLƏR

ABŞ-ın İran və Rusiyaya qarşı sərtləşən sanksiyaları ən çox işğalçı ölkəni çətinə salıb; Azərbaycan Gürcüstan kimi Ermənistanın da enerji təchizatını öz üzərinə götürə bilər, əgər...; **Qərb KİV-i:** "Ermənistanın regionda izolyasiyada olması və dənizə çıxışdan məhrumluğu..."




yazısı səh.8-də

### Dövlət xidmətləri tam elektronlaşdırılacaq

yazısı səh.6-da

### "Norveç Azərbaycanda səfirliyi neft layihələrinə görə açmışdı" iddiasına iki rəy

yazısı səh.9-da

### "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabı işıq üzü gördü

yazısı səh.6-da

### Baş nazirin müavinləri: kim hansı işə baxır

yazısı səh.12-də

### Həbsdə olan generalın bacanağı da hakim qarşısında - dələduzluq işi...

yazısı səh.3-də

### Parlamentdə hökumətin iştirakı ilə büdcə müzakirələri başladı

yazısı səh.10-da

### Paşinyana qarşı hərbi müxalifət meydana çıxa bilər

yazısı səh.9-da

### Azərbaycanda sürüşmə zonaları aktivləşib

yazısı səh.4-də

### İçərişəhərdə restoranlarla bağlı son durum: sakinlər narazıdır

yazısı səh.13-də

### Dünyada insanı dəhşətə gətirən adət və inanclar

yazısı səh.15-də

## Yerlərdə sahibkarların "qanını içən" vəzifəlilər

Prezidentin tapşırığına məhəl qoymayanları hansı cəza gözləyir; **Fikrət Yusifov:** "İqtisadiyyatın inkişafının bir problemi var ki, bu da məmur problemidir"

yazısı səh.12-də



### Nemət Pənahlı bir aylıq həbsindən danışdı

yazısı səh.5-də



### Avropadan Zamirə Hacıyevaya ilə bağlı şok təklif -kitab yazmaq, film çəkmək

yazısı səh.7-də



*Tofiq Zülfüqarov:*

### "Rusiya getdikcə Ermənistandan tam uzaqlaşacaq"

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 242 (7131) 14 noyabr 2018

# Bakıda 11 qadını fahişəliyə cəlb edən kişi barəsində cinayət işi başlanıldı



## ««YARAT»»in dəstəyilə keçirilmiş M.A.P. festivalı teatr həvəskarlarına unudulmaz təəssüratlar bəxş edib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «YARAT» 6-11 noyabr tarixlərində Bakıda YARAT Müasir İncəsənət Məkanı tərəfindən keçirilən ikinci M.A.P. Beynəlxalq Teatr Festivalının baş sponsoru olub.**

**«YARAT» artıq ikinci ildir ki M.A.P. festivalının baş sponsorudur. Keçən il olduğu kimi, bu ilin tamaşaları da böyük uğur qazanıb və bütün yaş qruplarında olan teatr və performans həvəskarları tərəfindən böyük maraqla qarşılanıb. Fikrimcə, bu festival həm yerli, həm də beynəlxalq müstəvidə olduqda vacib bir tədbirdir. Yüksək səviyyədə təşkil edilmiş bu təşəbbüsə görə «YARAT» Müasir İncəsənət Məkanına «YARAT» adından təşəkkürümüzü bildirmək istərdim. «YARAT» şirkəti Azərbaycanda musiqi və incəsənətin inkişafına və ölkənin gəncləri arasında mədəniyyət və incəsənətin təbliğ edilməsinə töhfə verməyə davam edəcək", deyə «YARAT» şirkətinin baş icraçı direktoru Nikolai Beckers qeyd edib.**

**Ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi platforması olan M.A.P. (musiqi, incəsənət və performans) festivalı tamaşaçı auditoriyasına müasir teatr formalarının geniş diapazonu ilə tanış olmağa kömək etmək məqsədilə özündə müxtəlif teatr nümunələrini birləşdirir. Bu ilki festival çərçivəsində İtaliya, Danimarka, Estoniya, Almaniya, İran, Yaponiya, İsveçrə, Rusiya və Birləşmiş Krallıqdan olan nüfuzlu teatr qurumlarının 16 tamaşası təqdim olunub. Festival zamanı nümayiş etdirilmiş unikal tamaşalar ictimaiyyətin böyük marağına səbəb olmaqla Azərbaycanın teatr həvəskarlarına unudulmaz təəssüratlar bəxş edib. Tamaşaları müşayiət edən zəngin ustad dərsləri və mühazirələr yeni fəaliyyətə başlayan rejissorlar, aktyorlar, dramaturqlar və digər peşəkarların öz həmkarları ilə görüşməsinə və fikir mübadiləsi aparmasına imkan yaradıb.**

**"Biz qarşımıza incəsənət vasitəsilə sərhədləri aradan qaldıran, mədəniyyətləri birləşdirən, insanları bir araya gətirən və dünyanın müxtəlif yerlərindən müasir teatr tamaşaları ilə tanış olmağa imkan verən festival keçirmək məqsədi qoymuşduq. Bu ilki M.A.P. festivalının uğuru bir daha göstərdi ki bütün yaş təbəqələrinə aid Azərbaycan tamaşaçılarının müxtəlif teatr janrlarına böyük marağı var. Bu, ölkəmizdə incəsənət və mədəniyyətin inkişafına yönəlmiş fəaliyyətimizi davam etdirmək üçün bizə əlavə stimul verir. M.A.P. Festivalını növbəti dəfə dəstəklədiyi üçün "YARAT"ə öz dərin təşəkkürümü bildirirəm. Artıq ikinci ildir ki M.A.P. Festivalının baş sponsoru qismində çıxış etməsi ««YARAT» şirkətinin Azərbaycanda incəsənət və mədəniyyətin inkişafına verdiyi töhfənin bariz nümunəsidir", deyə "YARAT" Müasir İncəsənət Mərkəzinin bədii direktoru Suad Qarayeva-Maleki bildirib.**

**Azərbaycanın payız təqvimində əlamətdar yer tutmuş M.A.P. festivalı teatrın Azərbaycanın mədəni həyatında öz əvvəlki nüfuzunun və əhəmiyyətinin qaytarmasına xidmət edib.**

**Milli telekommunikasiya operatoru olan «YARAT» ölkədə irimiqyaslı və nüfuzlu mədəniyyət layihələrinə daim dəstək göstərir.**



**Bakıda 11 qadını fahişəliyə cəlb edən şəxs barəsində cinayət işi başlanılıb. "Report"un xəbərinə görə, həmin qadınlar hüquq-mühafizə orqanları əməkdaşlarına müraciət edərək Pərviz Məmmədov adlı şəxsin onları fahişəliyə cəlb etdiyini deyiblər.**

Daha sonra P.Məmmədov saxlanılıb və onun barəsində Cinayət Məcəlləsinin 243.1-ci (gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə) maddəsi ilə ittiham irəli sürülüb.

Artıq cinayət işinin ibtidai istintaqı yekunlaşıb və baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib.

Cinayət işi hakim Samir Məmmədovun icraatına verilib.

Məhkəmənin hazırlıq iclası noyabrın 19-na təyin edilib.



## Azərbaycanın "İnterpol" xətti ilə axtarışa verdiyi biznesmen Ukraynada saxlanıldı

**Azərbaycan dövlətinin "İnterpol" xətti ilə axtarışa verdiyi 41 yaşlı Adil Ələsgərov Ukraynada saxlanılıb. "Report" xəbər verir ki, "ADF" şirkətinin prezidenti olan A.Ələsgərov vergi ödəməkdən yayındığına görə barəsində cinayət işi başlanıb.**

Hazırda biznesmenin Azərbaycana ekstradisiyası üçün işlər davam etdirilir.

Qeyd edək ki, "ADF" şirkəti Azərbaycana avtomobil ehtiyat hissələri gətirirmiş.





## Məşhur estetik cərrah öz həmkarından polisə şikayət edib

**Azərbaycanda məşhur estetik cərrah öz həmkarından polisə şikayət edib. "Report"un xəbərinə görə, Xətai Rayon Polis İdarəsinə müraciət edən estetik cərrah Siruz Qoçxani bildirib ki, həmkarı Pərviz Əhmədov cərrahi əməliyyatlardan əvvəl və sonra çəkilən və ona məxsus peşə fəaliyyətində xüsusi önəm kəsb edən şəkilləri icazəsiz və qanunsuz olaraq ələ keçirib.**

Faktla bağlı araşdırma aparılır.

S.Qoçxani Baku Medica Plaza xəstəxanasında çalışır. Əvvəllər S.Qoçxani və P.Əhmədov arasında münasibətlər yaxın olub.

Qeyd edək ki, hər iki həkimin adı mətbuatda qalmaqallı hadisələrdə hallanıb.

## Bərdədə avtomobil iki piyadanı vurub, biri ölüb

**Bərdə rayonunun Mirzalıbəyli kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. DİN-dən musavat.com-a verilən məlumata görə, noyabrın 12-də saat 19 radələrində Bərdə rayonunun Mirzalıbəyli kəndi ərazisində Gərənə kənd sakini İlqar Qarayev idarə etdiyi "VAZ-2107" markalı avtomobillə yolu keçən kənd sakinləri Şamo Yusifovu və Şamo Rüstəmovu vurub. Nəticədə Ş.Rüstəmov hadisə yerində ölüb, Ş.Yusifov xəstəxanaya yerləşdirilib.**

Bərdə RPŞ tərəfindən araşdırma aparılır.

## Yevlaxda mikroavtobus qəzaya düşüb, 10-a yaxın yaralı var

**Yevlax rayonunda mikroavtobus qəzaya düşüb. "Report"un Qərb bürosunun məlumatına görə, hadisə Yevlax-Xaldan yolunun rayonun Quçuluq kəndi ərazisindən keçən hissəsində baş verib.**

Belə ki, mikroavtobusla "VAZ-2107" markalı avtomobilin toqquşması nəticəsində 10-a yaxın sərnişin yaralanıb. Yaralılar Yevlax və Mingəçevir xəstəxanalarına aparılıb.

Faktla bağlı araşdırma aparılır.



## "Nar"dan ADA Universitetinin Təqaüd Proqramına dəstək

nar
Gəlin birlikdə böyüyək

**"Nar" və ADA Universiteti arasında əldə olunan əməkdaşlıq sazişinə əsasən, mobil operator universitetdə yüksək nəticələr göstərən tələbələrə dəstək olacaq. Əməkdaşlıq çərçivəsində "Nar" da ADA Universiteti Fonduna öz təhfəsini verəcək və universitetin İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutunda təhsil alan və fərqlənən tələbələrinin təqaüdünü ödəyəcək. Qeyd edək ki, 2017-2018-ci tədris ili üzrə ADA Universitetində Kompüter Mühəndisliyi, İnformasiya Texnologiyaları və Kompüter Elmləri ixtisasları üzrə təhsil alan 50-yə yaxın tələbənin təqaüdü ADA Universiteti Fondu tərəfindən ödəniləcək. Noyabrın 12-də ADA Universitetində təqaüd qazanmış tələbələrə təqaüd kartlarının təqdim olunması mərasimi keçirilib və onlara xüsusi sertifikatlar verilib.**

**"Nar" və ADA Universiteti arasında əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında yüksək nəticələr göstərən tələbələrə dəstək üçün ADA Universiteti Fondu ilə əməkdaşlıqla yanaşı, startap layihələri dəstəkləyən ADA İnnovasiya Mərkəzi ilə tərəfdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və təcrübə imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər mövcuddur.**

**Təhsil və maarifləmənin inkişafına xüsusi önəm verən "Nar"ın bu təşəbbüsü tələbələrin dərslərində daha uğurlu olmalarına xidmət edir. ADA Universiteti ilə "Nar" arasındakı əməkdaşlıq ölkədə təhsil və maarifləmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə böyük töhfə verəcək.**

**Bu günlərdə cəmiyyət olaraq, cinçıxarma mövzusu və onun yaratdığı fəsadlarla bağlı müzakirə aparırıq. Xüsusən də bu kimi halların cahilliyin kök saldığı ölkələrdə geniş yayılması fikrini müdafiə edirik. "Yeni Müsavat" bunun sübutu olaraq, bəzi ölkələrdə geniş yayılan və bizim cahillik kimi qəbul etdiyimiz bəzi ənənələr barədə yazır.**

# Dünyada insanı dəhşətə gətirən adət və inanclar

## Biz bədəndən cin çıxarırıq, onlar isə...







Tanzaniya və Keniyada yerli Vesai qəbiləsi üzvləri salamlaşmaq üçün qəribə bir üsuldan istifadə edir. Qəbilə üzvləri tüpürərək salamlaşırlar. "Bir dirhəm ət min ayıb örtər" deyiblər. Tanzaniyada kök qadınlar gözəlmiş kimi qəbul edilir. Bu ölkədə gözəllik anlayışı bir az fərqlidir. Evlənmə yaşına gələn qızlar ən azı 60 kilo olmaq məcburiyyətindədilər.

Laoslu qadınlar isə boyunlarını və biləklərini gizlətmək üçün xüsusi diqqət göstərirlər. Bundan başqa, boyunlarındakı halqa kiçik yaşda taxılır və yaşları irəlilədikcə yenisi daha da uzadılır.

Şotlandiyada gəlinlər toydan əvvəl üzərləri palçıq, yumurta və digər şeylərlə kirlədilir və beləcə şəhərdə gəzdirilir. Gəlinlər isə intiqam olaraq gecə gec saatda böyüklərinə ayaqlarını yuduzdururlar.

Hindistanda qonaqlığa gələn insan yeməyi yedikdən sonra gəyirməsə, yeməyi bəyənməmiş sayılır. Bu, çox böyük bir hörmətsizlik olaraq görülür.

Bədəvilər isə ilk olaraq dəvəni kəsir, dərisini üzür, içini hazırlayırlar. Ardınca qoyunu dəvənin içinə qoyurlar. Sonra toyuğu kəsirlər, toyuğu da qoyunun içinə qoyurlar. Ən son balığı toyuğun içinə qoyurlar. Əgər balıq tapmazlarsa, toyuğun da içinə bir neçə yumurta qoyurlar.

Peruda uşaqlarının sağlam olmalarını istəyən ailələr onlar üçün qoyun və ev heyvanlarını öldürürlər. Və öldürülən heyvanların qanları ilə uşaqlarını çimizdirirlər.

İndoneziyanın Cənubi Sulavesi bölgəsində yaşayan yerli xalq "Ma'nene" olaraq adlandırılan rituallarla tükləri biz-biz edir. Bölgədə yaşayan ailə üzvləri hər 3 ildə bir ölülərinə olan sayğılarını göstərmək və onları qürurlandırmaq üçün məzarlarını açırlar. Açılan məzarlardan çıxarılan ölülərin üzərlərindəki geyimlər təmizlənir, lazım gəlsə, yeniləri geyindirilir. Yerli xalq üstündən yüz illər keçsə də, ölən ailə üzvlərinin hələ də onlarla birlikdə olduğuna inanır.

### Bir əcaib ölkə - Hindistan...

Hindistanın anlamaqda çətinlik çəkilən bir çox adəti var. Onlardan biri də 7 yaşına gələn qız uşaqlarının mərasim müşayiəti ilə itlə evləndirilməsidir. Bu nikahın səbəbi isə qız uşağının gələcəkdə həqiqi əri ilə evlənənə qədər itin onu qoruyacağına inanılmasıdır.

Yenə Hindistan ənənəsinə görə, əri ölüb, dul qalan hindli qadınlar üstlərinə benzin töküb yandırırlar, ya da başqaları tərəfindən yandırılırlar. Beləliklə, bütün günahlarından təmizlənib, digər dünyada da ərlərinin yanında olacaqlarına inanırlar.

Şotlandiyada viskilər şüşələrə qoyulmadan öncə ən azı 3 il şüşə bidonlarında saxlanır. Amma bu gözləmə sırasında viskinin bir qismi buxarlanaraq itir. Şotlandalr buxara çevrilən və hara getdiyini bilmədikləri bu itkin viskini mələklərin içdiyini düşünərək, ona "Mələklərin payı" deyirlər.

### Ölülər günü (Meksika)

Meksikalılara görə, həyat bir təkrardır və ölülər də bu təkrarın bir parçasıdır. Dolayısı ilə ölümün bir son olmadığını düşünən meksikalılar ölən yaxınları üçün hər il üzlərini skelet baş şəklində boyayaraq, onların ən sevdiyi yeməkləri hazırlayıb, bu günü qəbiristanlıqda bir karnaval havasında qeyd edirlər. Piknik havasında keçən bir ayin eyni zamanda onlar üçün həyatın da qeyd edilməsi mənasına gəlir.

Bu qutlamaların ilk günü 1 noyabra təsadüf edir və bu gün ölən uşaqlara həsr olunub. Adı ''Kiçik Mələklər Günü" olaraq qeyd edilib.

### Uşağın üstündən hoppanma (İspaniya)

İspaniyanın Castrillo de Murcia qəsəbəsində hər il uşaqların üstündən hoppanılır. Təxminən 400 ildir təşkil edilən və festival tədbiri səviyyəsində davam edən bu ənənənin məqsədi isə uşaqları şeytanın təsirlərindən və günahlarından təmizləməkdir.

### Evlənmək üçün yaş həddi - 25-27 (Cənubi Koreya)

Qulağa ən uyğun gələn adət isə Cənubi Koreyadandır. Burada qadınların 25, kişilərin 27 yaşına gələnə qədər evlənməsi qanunən yasaqdır.

Hinduizmin Aqori məzhəbinə inananlar Şivanı ən böyük tanrı olaraq qəbul edirlər. Şivanın hər şeyi yaratdığına inandıqları üçün nə cinsəllik, nə spirt, nə də narkotik onlar üçün tabu deyil. Onlar adam əti yeyirlər və məbədləri ölüləri yandırmaq üçün istifadə edirlər...

Bir Aqori nümayəndəsi ölü yandırılan yerdə yaşayıb həyatını orada davam etdirə, dünyadan köçmüş insanın geyimlərini geyinə, onun cəsədinin külünü şəfa əldə etmək ümidilə bədəninə sürtə bilər. Lakin Aqori həyatının ən şok edici tərəfi burada adam ətinin yeyilməyidir. Ərazidə yaşayan insan heç bir narahatlıq keçirmədən çayda ölü tapdığı bədənləri toplayır, cəsədləri ayrı-ayrı hissələrə bölərək çiy şəkildə yeyir.

### Körpələri 15 metrdən aşağı atırlar və...

Hindistanın Maharacta bölgəsindəki Solapurda valideynlər hər il toplanaraq körpələrini 15 metrlik mənzilin damından aşağı atır. Körpələr digər kəndlilərin əllərində tutduğu yerə dəyməyən şalın üzərinə düşür. Valideynlər bunu övladlarının sağlam, uzun ömür keçirəcəklərinə inandıqlarını göstərmək üçün edirlər. Maraqlıdır ki, ayin müsəlmanlar tərəfindən icra edilir, lakin bəzi hindli ailələr də mərasimə qatılırlar.

Braziliyanın Amazon bölgəsində yaşayan Satere-Mave sakinləri oğlan uşaqları üçün ağrı verən ənənəyə malikdirlər. Oğlan uşağı, "kişi" olmaq üçün əlini içində qara qarışqaların olduğu əlcəyə salıb on dəqiqə boyunca əlini orada tutmaq məcburiyyətindədir. Qarışqanın sancma anında verdiyi ağrı təbiətdəki ən acı verici hisslərdəndir. Kişiliyə keçmə yaşına gələn şəxs bunu iyirmi dəfə, özü də müəyyən bir müddət boyunca təkrarlamalıdır.

Filippinin Saqada nahiyəsində əhəng daşlarından ibarət olan mağaralar bölgədəki ölülərin evləri olaraq qəbul edilir. Bir çox insan mağaralara basdırılarkən uzun zamandır icra olunan adətə görə tabutlar ölünün basdırıldığı mağaranın xaricinə asılır.

### Onlar salamlaşmaq üçün tüpürürlər

Yanamamö - Venesuella və Braziliyada yaşayan böyük bir qəbilədir. Müasir həyat onlara heç bir şəkildə sirayət etməyib və hələ də qədim ənənələrini qoruyub saxlayırlar. Yanamamö dini ənənələrinə görə, ölülərin külləri və sümükləri də məhv edilməlidir. Bu səbəbdən qəbilənin nümayəndəsi dünyasını dərk etdikdə cansız bədəni yandırılaraq sümükləri qırılır. Artıqlar ailə arasında paylaşdırılır. Bədənin heç bir parçasının qalmaması şərtilə cəsədin külləri olan küp yox edilir.

Keniya və Tanzaniyada yaşayan etnik afrikalı qrupa aid olan qəribə ənənəyə görə isə salamlaşma zamanı tüpürcəkdən istifadə olunur. Burada həmçinin körpə doğulduğu zaman Masai qəbiləsinin kişiləri körpənin üzərinə tüpürərək pis ruhların ona yaxınlaşmasının qarşısını alırlar. Qəbilə döyüşçüsü yaşlı üzvləri salamlayarkən yaşlı adamın əlini sıxmazdan öncə onun ovucuna tüpürməlidir. Bu, hörmət əlaməti kimi qəbul edilir.

Yaxın dövrdə Vatikan və antik Roma qəbiristanlıqlarında edilən qazıntılarda uzun zamandan bəri unudulan ənənə ortaya çıxıb. Romanlar ölülərlə birlikdə yemək yeyir və hətta onları bəsləyirlər. Məzarların bir çoxunda xaricdən ölünün bədəninə uzanan boru var. Bu boru ilə ölüyə şərab, bal və digər yeməklər verilirmiş.

Antik romalılar tez-tez ölülərinin məzarının yanında gəzinti edərlərmiş. Bunun səbəbi isə ölən adamın da onlarla birlikdə qidalandığını ifadə etmək imiş. Deyilənlərə görə, Roma qəbirlərində olan borulara bənzər cisimlər İngiltərədə də mövcud olub.

Yaponiya və Rusiyanın müxtəlif ərazilərində mövcud olan yerli qəbilələr- ainular (*bir zamanlar etnik azlığı animist - canlıçılıq*) dini inancları ilə diqqət cəlb edirlər. Onlar dini ayinlərinin icrasını ayıları öldürərək həyata keçirirlər. Ayin üçün mağarasında qış yuxusuna gedən bir ana ayı seçilir. Balalar iki il boyunca qəfəsdə tutulur və 2 il tamam olanda ainular tərəfindən dindarlıqlarını göstərmək məqsədilə "dini ənənələrə uyğun bir şəkildə" vəhşicəsinə öldürülürlər. Kəndlilər ayını kəsdikdən sonra qanını içib ətini yeyirlər. Maraqlıdır ki, ainular ayıların tanrı olduğuna və bu ayini onları müqəddəsləşdirmək üçün etdiklərinə inanırlar. Yaponiyada bu ayin qadağan olsa belə, bəzi yerlərdə hələ də icra olunur.

Gördüyünüz kimi, bu yazdıqlarımızın arasında cin çıxarmadan daha dəhşətli adətlər də var. Amma dediyimiz kimi, üçüncü dünya ölkələrində, inkişaf etməmiş toplumlarda daha çox özünü göstərən hadisələrdən söhbət gedir. Bunların heç biri sivilizasiyanın məskəni sayılan ölkələrdə yaşanmır . Bu da ciddi dərs çıxarılası məqamdır.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**